# Novruz bayramınız mübarək!


AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* | *№ 13 (1413), 19 mart - 1 aprel 2019-cu il* | *Qəzet 2001-ci ildən çıxır.*




Gimnastika Arenasında keçirilən yarışlarda dünyanın 41 ölkəsindən 121 kişi və 49 qadın gimnast medallar uğrunda mübarizə aparıb. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışın iştirakçıları arasında xeyli sayda Olimpiya mükafatçısı, dünya və Avropa çempionatının medalçıları olub.

Dörd gün ərzində keçirilən yarışların ilk iki günü təsnifat, sonrakı iki günü isə final yarışları keçirilib. Ölkəmizi bu yarışlarda Murad Ağarzayev, İvan Tixonov,

## Gimnastımız Dünya kuboku yarışlarının gümüş medalını qazanıb

Bakıda keçirilən idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Dünya kuboku yarışlarına yekun vurulub. Milli Nikita Simonov və qadın idman gimnastımız Marina Nekrasova təmsil ediblər.

*(ardı 2-ci səhifədə)*

## MOK-un nümayəndə heyəti BƏOK-un İcraiyyə Komitəsinin iclasında iştirak edib

Martın 15-16-da Macarıstanın paytaxtı Budapeşt şəhərində Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) İcraiyyə Komitəsinin iclası keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayev, AzƏOK-un məsul katibi Aysel Sultanova təmsil ediblər. Tədbir çərçivəsində beynəlxalq təşkilatın fəaliyyəti, eləcə də, AzƏOK sədri Xəzər İsayevin prezidenti olduğu BƏOK-un Ədalətli Oyunlar Regional İnkişaf Mərkəzinin işi ilə bağlı bir sıra məsələlər müzakirə olunub.

Xatırladaq ki, ötən il beynəlxalq qurumun İcraiyyə Komitəsinin təşəbbüsü ilə Ədalətli Oyunlar Regional İnkişaf Mərkəzinin Azərbaycanın paytaxtı Bakıda yaradılması barədə qərar qəbul edilib.



## Boksçumuz Avropa çempionu oldu

Rusiyanın Vladiqafqaz şəhərində 22 yaşadək kişi və qadın boksçular arasında Avropa çempionatına yekun vurulub. Yarışın son günü Azərbaycan millisinin lideri Məhəmməd Abdullayev final döyüşünə çıxıb. +91 kq çəki dərəcəsində qüvvəsini sınayan boksçumuz həlledici görüşdə almaniyalı Viktor Yurkla üz-üzə gəlib. Döyüş təmsilçimizin aşkar üstünlüyü ilə keçib. M. Abdullayev 5:0 (30:27, 29:28, 30:27, 30:27, 29:28) hesabı ilə qalib gələrək, Avropa çempionu tituluna yiyələnib.

Beləliklə, Azərbaycan millisi qitə birinciliyini 1 qızıl və 2 bürünc medalla başa vurub. M. Abdullayevdən öncə Rüfət Hüseynov (49 kq) və Cəbrayıl Yelekov (81 kq) 3-cü yeri tutub.

Qeyd edək ki, kişilərdən ibarət yığmamız komanda hesabında 38 ölkə arasında 4-cü yeri tutub. Yarışda qızıl medallar da məhz 4 millinin hesabındadır. Rusiya boksçuları 7 dəfə (7-0-0) çempionluq sevinci yaşadıqları halda, digər 3 ən yüksək əyarlı mükafat Bolqarıstan (1-1-0), Ukrayna (1-0-3) və Azərbaycan (1-0-2) idmançılarının payına düşüb.

## *Olimpizm*

### Yaponiya MOK-nun prezidenti istefa verəcək

Yaponiya Milli Olimpiya Komitəsinin (MOK) prezidenti Tsunekazu Takedanın Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunları ərəfəsində vəzifəsini tərk edəcəyi deyilir. Bu barədə Kyodo agentliyi məlumat yayıb.



Xatırladaq ki, Takeda Tokio-2020 Olimpiadasının Yaponiyanın paytaxtında keçirilməsi ilə bağlı rüşvət məsələsində adının hallandığı andan çətin vəziyyətə düşüb. Fransa müstəntiqləri ötən ilin dekabrından başlayaraq MOK prezidentinin məhkəməyə cəlb edilməsinin mümkünlüyünü araşdırırlar.

Takeda bu məsələdə günahının olmadığını dəfələrlə bəyan edib. Lakin, Beynəlxalq Olimpiya Komitəsinin bu qalmaqalın qarşıda gözlənilən Oyunlara kölgə salacağı barədə narahatlığını ifadə etməsi, ona qarşı həm ölkə daxilində, həm də xaricdə təzyiqləri xeyli artırıb.

### ABŞ-ın idmançı qadınları iddia qaldırıblar

Ölkənin idmançı qadınlardan ibarət bir qrup ABŞ Milli Olimpiya Komitəsinə (MOK) və bir sıra yüksək vəzifəli idman funksionerlərinə qarşı iddia qaldırıblar.

51 idmançı qadının imzaladığı bu iddia idman məmurlarının fəaliyyətsizliyi ilə bağlıdır. Belə ki, məmurlar bu qadınları ABŞ-ın idman gimnastikası üzrə qadınlardan ibarət yığma komandasının keçmiş həkimi Larri Nassarın təcavüzündən qorumaqda acizlik göstəriblər.

Nassar ötən ilin yanvar ayında idmançı qadınlara qarşı təcavüzdə ittiham olunaraq 40 ildən 175 ilə qədər müddətə həbs cəzasına məhkum edilib. 150-dən çox qadın Nassara qarşı ifadə verib. Nassarla bağlı əhvalatdan sonra ABŞ İdman Gimnastikası Federasiyasının prezidenti Kerri Perri istefa verməyə məcbur olub. Əksəriyyətin fikrincə, bu hadisəyə görə ən böyük məsuliyyət ABŞ MOK-un keçmiş rəhbəri Skott Bləkmunun üzərinə düşür.


**Əziz oxucular!**

**"Olimpiya dünyası"-na 2019-cu il üçün abunə yazılışı davam edir.**

**Abunə yazılışının**

3 aylıq qiyməti - 6 manat (1 nüsxə)
6 aylıq qiyməti - 12 manat (1 nüsxə)
12 aylıq qiyməti - 24 manat (1 nüsxə)

*Abunə yazılmaq üçün*

- *"Azərmətbuatyayımı" İB-ə (tel: 440 39 83)*
- *"Qaya" (tel: 565 67 13)*
- *"Səma" (tel: 596 22 97)*
- *"City Press" (tel: 437 28 10)*
- *"Kaspi" (tel: 432 39 55)*

mətbuat yayımı firmalarına müraciət edə bilərsiniz

"Olimpiya dünyası"- idmanımızın aynası


**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

**Ədalətli idmanın keşiyində dayanmaq böyük məsuliyyət tələb edir** Səh. 7

### *Anons*


Ağırlıqqaldıranlarımızın Las-Veqasda tarixi qələbəsi Səh. 2

*OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü* Səh. 3

Basketbol məşqçiləri üçün ustad dərsləri Səh. 4

*Sərbəst güləşçilərimiz Mahaçqalada hazırlıq keçiblər* Səh. 4

Nadir Əliyev: "Ən böyük və dəyərli xəzinə insanın dostlarıdır" Səh. 6



# Atçılıq Federasiyasının ümumi yığıncağı keçirilib

Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) növbəti ümumi yığıncağı keçirilib. Yığıncaqda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, ARAF İdarə Heyətinin üzvləri və 100-ə yaxın federasiya üzvü iştirak edib. Ümumi yığıncağın əvvəlində son illər ərzində Azərbaycan Respublikasında atçılığın tərəqqisinə, beynəlxalq yarışlarda qazanılmış uğurlara həsr olunmuş sənədli film nümayiş etdirilib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin giriş sözündən sonra federasiyanın baş katibi Bəhruz Nəbiyev 2009-cu ildən etibarən federasiya tərəfindən görülmüş işlərlə bağlı geniş məruzə edib.

Federasiyanın vitse-prezidenti Mahir Muradov son beş il ərzində atçılığın konkur növü üzrə görülmüş işlər, vitse-prezident Elşad Abbasov son beş il ərzində cıdır üzrə görülmüş işlər barədə, federasiyanın İdarə Heyətinin üzvü Bəsirət Quliyev milli at cinsləri və milli atüstü oyunlarla bağlı məruzələr ediblər.

Sonra federasiya prezidentinin seçkiləri keçirilib, Elçin Quliyev ümumi yığıncaq üzvlərinin maksimal səs çoxluğu ilə yenidən növbəti beş il müddətinə ARAF-ın prezidenti seçilib.

Ümumi yığıncağın qərarı ilə ARAF-ın birinci vitse-prezidenti vəzifəsinə Mahir Muradov, vitse-prezident vəzifələrinə Elşad Abbasov, Bəsirət Quliyev, Sakit Məmmədov, Bəhruz Nəbiyev seçilib və İdarə Heyətinin üzvləri təsdiq olunublar.

Səsvermədən sonra ARAF prezidenti Elçin Quliyev çıxış edib, göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib, gələcək planlar və görüləcək işlər haqqında geniş məlumat verib.

# Gimnastımız Dünya kuboku yarışlarının gümüş medalını qazanıb

(əvvəli 1-ci səhifədə)

Martın 14-də Milli Gimnastika Arenasında (MGA) idman gimnastikası üzrə Dünya kuboku yarışlarının ilk günündə (14-15 mart) idmançılar təsnifat yarışlarında qüvvələrini sınayıblar. Martın 16-da kişilər sərbəst hərəkətlər, paralel qollar, halqalar, qadınlar isə dayaqla tullanma və müxtəlif hündürlüklü qollar üzrə yarışların final mərhələsində mübarizə aparıblar. Azərbaycan gimnastı Nikita Simonov həmin gün Dünya kuboku yarışlarının gümüş medalını qazanıb.

Gimnastımız halqalar ilə yarışlarda hakimlərdən 14,800 xal alaraq ikinci olub. Turnirin qalibi adına Böyük Britaniya təmsilçisi



Kurtney Tulloç (14,933 xal) sahib olub. İlk üçlüyü ukraynalı İqor Radivilov 14,666 xalla tamamlayıb.

Sərbəst hərəkətlər üzrə kişilərin yarışında İsrail təmsilçisi Artyom Dolqopyat 15,066 xalla dünya kuboku yarışlarının qalibi olub. İsveçrəli Pablo Brigger 14,566 xalla ikinci, İspaniya gimnastı Rayderley Zapata isə 14,500 xalla üçüncü yerdə qərarlaşıblar. Azərbaycan gimnastı Murad Ağarzayev 13,800 xalla altıncı olub.

Kişilərin paralel qollarda yarışında rusiyalı Vladislav Poliaşov 15,133 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Türkiyəli Ferhat Arıcan 15,100 xalla gümüş, Çin idmançısı Hao You 15,066 xalla bürünc medal qazanıb.

Qadınların dayaqla tullanma yarışlarında ABŞ təmsilçisi Keri Ceyd 14,933 xalla birinci, özbəkistanlı Oksana Çusovitina 14,700 xalla ikinci, Meksika təmsilçisi Aleksa Moreno 14,233 xalla üçüncü pillədə qərarlaşıblar.

Azərbaycan gimnastı Marina Nekrasova isə 13,900 xalla altıncı olublar.

Qadınlar arasında müxtəlif hündürlüklü qollarda hərəkətlərin yekununa görə, çinli idmançı Ciaqi Lyu 14,266 xalla Dünya kuboku yarışlarının qalibi adını qazanıb. Rusiyalı Anastasiya İliankova ikinci (14,133 xal), Avstraliya gimnastı Corciya-Rouz Braun (13,566) isə üçüncü yeri tutublar.

Martın 17-də, yarışların sonuncu günündə kişilər dayaqla tullanma, dəstəli at, turnik, qadınlar isə gimnastika tiri və sərbəst hərəkətlər üzrə yarışların final mərhələsində güclərini sınayıblar.

Kişilər arasında dayaqla tullanma yarışlarında Koreya Respublikasından olan gimnast Haksin Yanq 14,970 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Ukrayna gimnastı İqor Radivilov 14.833 xalla ikinci, rusiyalı Denis Abliazin isə 14,766 xalla üçüncü yerdə qərarlaşıblar.

Dəstəli at yarışlarında kişilərin mübarizəsində yaponiyalı Kohey Kameyama 15,233 xalla dünya kubokunun qızıl medalını qazanıb. Fransa təmsilçisi Siril Tommason 14,833 xalla ikinci, çinli Hao Venq 14,033 xalla üçüncü olublar.

Kişilərin turnik yarışlarında niderlandlı Epke Zonderland 14,633 xalla bütün rəqiblərini qabaqlayıb. Xorvatiyalı Tin Srbiç 14,600 xalla gümüş, İsveçrə gimnastı Oliver Heqi 14,366 xalla bürünc medal qazanıblar. Avstraliya təmsilçisi Emma Nedova qadınların gimnastika tiri yarışlarında proqramını icra edərək hakimlərdən 14,100 xal alıb və bütün rəqiblərindən üstün olub. Fransa təmsilçisi Marine Boyerin hesabında da eyni xal olub və hakimlərin qərarı ilə o, yarışı ikinci pillədə başa vurub. İlk üçlüyü Yaponiya gimnastı Mana Oquçi 13,200 xalla qapayıb. Azərbaycan təmsilçisi Marina Nekrasova 11,366 xalla dünya kuboku yarışlarında yeddinci olub.

Qadınlar arasında sərbəst hərəkətlər üzrə yarışlarda ABŞ idmançısı Ceyd Keri 14,600 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İtaliya gimnastı Lara Mori 13.866 xalla yarışı ikinci, həmyerlisi Vanessa Ferrari (13,733) isə üçüncü pillədə başa vurublar.

*Səadət Hakıyeva*




# Komandamız Xüsusi Yay Olimpiya Oyunlarında uğurla çıxış edir

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində start götürən Dünya Xüsusi Olimpiya Oyunlarının açılış mərasimində iştirak edib.

Açılış mərasimində Əbu-Dabinin Vəliəhdi, BƏƏ Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan çıxış edərək, Dünya Xüsusi Olimpiya Oyunlarını açıq elan edib.

Tədbirdə Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifə, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Seneqal Prezidenti Maki Sal, Malta Prezidenti Cozef Muskat, BƏƏ-nin Əcman, Fuceyra, Umm Əl-Quveyn və Ras Əl-Xeymə əmirliklərinin əmirləri, vəliəhdləri, yüksək səviyyəli qonaqlar, nazirlər iştirak ediblər. Azərbaycanın BƏƏ-dəki səfirliyinin müvəqqəti işlər vəkili Leyla Süleymanova və ölkəmizin Dubay və Şimal əmirliklərindəki baş konsulu Cavidan Hüseynov da açılış mərasiminə qatılıblar.

Səfər çərçivəsində nazir Azad Rəhimov Əbu-Dabinin Vəliəhdi, BƏƏ Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan, Baş nazir və vitse-prezident Şeyx Məhəmməd Bin Rəşid Əl Məktum, Beynəlxalq Xüsusi Olimpiya Hərəkatının sədri Timoti Şrayver, Avropa və Avrasiya Xüsusi Olimpiya Hərəkatının prezidenti Devid Evangelista, Serbiyanın gənclər və idman naziri Vanya Udoviçiç, Qazaxıstanın mədəniyyət və idman naziri Arıstanbek Məhəmmədiulı ilə görüşlər keçirib.

Əbu-Dabinin Vəliəhdi, BƏƏ Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyan ilə görüşdə nazir Azad Rəhimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Əbu-Dabi Vəliəhdinə çatdırıb.

Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan dərin təşəkkürünü bildirərək, onun da salam və səmimi arzularının Prezident İlham Əliyevə çatdırılmasını xahiş edib.

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov tədbir çərçivəsində təşkil olunmuş "Qlobal Gənc Liderlər Zirvəsi 2019" adlı sammitdə iştirak edib. Tədbirin açılış mərasimində BƏƏ-nin mədəniyyət və biliyin inkişafı naziri Nura bin Məhəmməd Əl-Kaabi, Beynəlxalq Xüsusi Olimpiya Təşkilatının sədri Timoti Şrayver, Təşkilatın Yaxın Şərq və Şimali Afrika üzrə regional prezidenti və icraçı direktoru Əyman Əbdülvəhhab və digərləri çıxış ediblər. Timoti Şrayver çıxışında ötən il Bakıda keçirilən Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərinin 20-ci Qlobal Forumunu xüsusi vurğulayıb. Bakı Forumunun Xüsusi Olimpiya Hərəkatının inkişafında müstəsna rol oynadığını bildirən Timoti Şrayver Azərbaycanın gənclərə, o cümlədən əqli məhdudiyyəti olan gənclərə yüksək diqqət və qayğısını, dünya şöhrətli ulduzların da məhz həmin müddətdə Bakıya səfər etdiklərini diqqətə çatdırıb.

İlk dəfə 1968-ci ildə təşkil olunan Dünya Xüsusi Olimpiya Oyunları xüsusi qayğıya ehtiyacı olan insanların inkişafına yönələn dünyanın ən böyük humanitar idman fəaliyyəti və qlobal hərəkatdır.

Martın 14-də start götürən və bir həftə davam edəcək Əbu-Dabi Dünya Xüsusi Olimpiya Oyunlarında 190-dan çox ölkədən 7 mindən artıq atlet idmanın 24 növü üzrə mübarizə aparır. Azərbaycan Oyunlarda idmanın 10 növü üzrə 56 idmançı ilə təmsil olunur.

Artıq komandamızın Xüsusi Yay Olimpiya Oyunlarında qazandığı medalların sayı 11-ə çatıb. Atletika yarışlarında bir qızıl, bir bürünc medaldan sonra cüdoçumuz Elnur Rəhmanov (60 kq) qızıl medal qazanıb. Onun komanda yoldaşları Fərid Şərifov (64 kq) gümüş, Nikita Merkuryev isə (66 kq) bürünc medala layiq görülüblər.

Atletika üzrə birinci divizionda mübarizə aparan Nigar Mustafayeva 50 metr məsafəyə qaçışda ikinci, Aidə Rzayeva isə üçüncü olub. Dördüncü divizionda isə Ariz Paşayev 50 metr məsafə üzrə qaçışda bürünc medal qazanıb.

Qeyd edək ki, idmançılarımız atletika, pauerliftinq, cüdo, stolüstü tennis, badminton, futbol, həndbol, basketbol, voleybol və üzgüçülük idman növlərində mübarizə aparırlar.

# Ağırlıqqaldıranlarımızın Las-Veqasda tarixi qələbəsi

ABŞ-ın Las-Veqas şəhərində keçirilən yeniyetmə ağırlıqqaldıranlar arasında 8-ci dünya birinciliyi Azərbaycan yığma komandası üçün mühüm uğurlarla yadda qalıb. 50-yə yaxın ölkədən 200-ə yaxın atletin mübarizə apardığı yarışda beş idmançı ilə iştirak edən milli komandamız böyük uğur qazanıb. Azərbaycan atletlərindən Ömər Cavadov (55 kq), Rüstəm Qasımov (67 kq) birdənqaldırma hərəkətində bürünc medal əldə ediblər. Əli Şükürlü (102 kq) həm birdənqaldırma, həm təkanla qaldırmada, həm də ümumilikdə bürünc medala layiq görülüb. Rəhman Kazımov (+102 kq) isə təkanla qaldırma hərəkətində qızıl medal qazanıb.

Beləliklə, yarışı 6 medalla başa vuran Azərbaycan yığma komandası ağır atletika tariximizdə yeni uğura imza atıb. Belə ki, bu dünya birinciliyində Azərbaycan millisi oğlanlar arasında komanda hesabında beşinci yeri tutub. Medal hesabında isə yığmamız 10-cu pillədə qərarlaşıb. İndiyə qədər bu nəticəyə heç bir komandamız nail ola bilməyib.

Bu uğurlar son illər Azərbaycanda idmanın bu növünün inkişafı istiqamətində həyata keçirilən genişmiqyaslı işlərin məntiqi nəticəsidir.



# OCEP çərçivəsində növbəti tədbir

Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının dəstəyi ilə keçirilən "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" fəaliyyəti çərçivəsində məktəb tədbirləri davam edir. Seçilmiş 49 Bakı məktəbi Olimpiya Festivalında iştirak edəcək 49 Avropa ölkəsini təmsil edir və bu məktəblər həmin ölkələrin idman, mədəniyyət, təhsil sahələrini təbliğ edirlər. OCEP çərçivəsində növbəti belə tədbir 193 saylı məktəbdə təşkil olunub. "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" adlı tədbir çərçivəsində Azərbaycanın hər bir bölgəsini təmsil edən müxtəlif növ stendlər, guşələr hazırlanıb. Qonaqlara stendlərə yanaşı, əyləncəli və informativ proqramda ölkənin zəngin dəyərləri və adət-ənənələri barədə məlumat verilib.

Tədbirdə çıxış edən 193 saylı məktəbin direktoru Rəhim Hüseynov məktəbdə Olimpiya Festivalına hazırlıq işlərindən bəhs edib. O, qeyd edib ki, Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində Azərbaycanı təmsil edəcək məktəblilər bu festivala həvəslə hazırlaşırlar və Azərbaycanı təmsil etməkdən qürur hissi duyurlar.

Təhsil Nazirliyinin tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri Vasif Məmmədov tədbirin təşkilinə görə məktəb kollektivinə təşəkkürünü bildirib.

Daha sonra MOK-un marketinq şöbəsinin direktoru Mehman Kərimov və Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov hər kəsə uğurlar arzulayıb. Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalı ərəfəsində də tədbirlərin davamlı olacağı qeyd edilib.

*Azərbaycan Milli Olimpiya Komitəsinin təklif etdiyi OCEP - Olympic Culture and Education Programme - Olimpiya mədəniyyəti və təhsili proqramı Beynəlxalq və Avropa Olimpiya Komitələri tərəfindən bəyənilmiş və onun Avropa Yeniyetmələrinin Olimpiya Festivalı ərəfəsində və dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Proqram üzrə işlər 2018-ci ildən başlanmışdır. Bu və sonrakı məqalələrdə proqramın mahiyyəti məqsəd və vəzifələrinin açılması, görülmüş və görülən işlərə dair məlumatların verilməsini əhatə edəcəkdir. Proqram Olimpiya təhsilini də özündə birləşdirdiyinə görə Olimpiya tarixi, Olimpiya idealları, olimpizmlə bağlı bir çox məsələlərə də, yazılarda yığcam şəkildə yer veriləcəkdir.*




# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

İdmanın yaranması məsələsi bu günə qədər mübahisə obyekti olsa da, onun inkişafı insan və mədəniyyət konsepsiyası çərçivəsində öyrənilir. Mədəniyyət, yoxsa idman birinci olmuşdur? Bu sual da ciddi mübahisələr doğurur. İdman nəzəriyyəçilərinin əsərlərinə daim müraciət etdikləri ispan filosofu Orteqa - u - Qasset insan həyatında oyunu birinci mövqedə götürmüş, insanın hansısa praktik və utilitar məqsədlərə çatmaq üçün istifadə etdiyi hər cür başqa fəaliyyəti isə ikinci sırada qoymuşdur. O, “Həyatın idman və bayram mahiyyəti” adlanan əsərində məhz idmanın mədəniyyət və sivilizasiyanın əsasında durmasını, mədəniyyətin təbiətin deyil, idmanın övladı olmasını xüsusi qeyd etmişdir. Təbii ki, bu məsələyə münasibətdə müxtəlif fikirlər, mübahisəli məqamlar vardır. Buna baxmayaraq, idman və mədəniyyət daim vəhdətdə götürülür.

Məntiq bizə deyir ki, təbiət qüvvələri və yırtıcı varlıqlarla yaşayış uğrunda mübarizə aparan, əsas diqqətini azuqə və qida tapmağa yönəldən yarımvəhşi, yarımçılpaq qədim insan üçün ən vacib keyfiyyətlər sürət, güc və dözüm olmuşdur. Bəlkə də, “ən güclü, ən sürətli, ən yüksək” Olimpiya devizi də qaynağını bundan götürmüşdür. Şübhəsiz ki, insanın şüurlu varlıq olması



ona qeyd edilən keyfiyyətləri özündə tərbiyə etmək yollarını tapmaqda kömək etmişdir. Nəticədə daha çox fiziki gücə, sürətə, dözümə nail olmaq üçün məşqlər etmək, bu keyfiyyətlərdən səmərəli istifadə məqsədi ilə fəndlər düşünüb tapmaq, vasitə və alətlər hazırlamaq bacarıqlarına yiyələnmək insan fəaliyyətinin bir hissəsinə çevrilmişdir. Bununla bərabər, insan birliklərində asudə vaxtlarda nəğmələr oxumaq, nağıllar danışmaq, oyunlar keçirmək də ənənəyə çevrilmişdir. Deyilənlər idman və mədəniyyətin çiyin-çiyinə, yanaşı inkişaf etməsinə səbəb olmuş, onların vəhdətini yaratmışdır.

İbtidai-icma quruluşunda idman yarışları məcburi xarakter daşımasa da, tayfa və qəbilələrin bir yerə toplandığı bayram və mərasimlərin bir hissəsini təşkil etmişdir. Quldarlıq cəmiyyətində isə yarışlar artıq asudə vaxtın təşkilində, müxtəlif ayinlərdə zəruri hadisəyə çevrilmişdir.

Qədim Yunanıstanda idman yarışları polislərin himayəçisi olan allahların - Zevsin, Paseydonun, Apollonun şərəfinə keçirilən bayramlar sayılmışdır. Antik Olimpiya Oyunlarının təşkili ideyasının yaranmasının da bundan irəli gəlməsi söylənilir. Bu oyunların keçirilməsi barədə müxtəlif əfsanə və rəvayətlər vardır. Yunan əsatirlərində Tantalın oğlu Pelopun müharibədə Emonayı məğlub etdikdən sonra qələbənin şərəfinə Olimpiya Oyunları keçirməsi qeyd olunur. Başqa bir mənbədə isə Zevsin oğlu Heraklın arqonavtların şərəfinə Alfey çayı sahilində Olimpiya adlandırılan yerdə yarışlar təşkil etməsi göstərilir. Onun Zevsin və Heraklın şərəfinə keçirilməsi fikri səslənir.

Antik Olimpiya Oyunlarının tarixi bizim eradan əvvəl 776-cı ildən başlanır və bizim eranın 394-cü ilinə qədər davam edir. Qədim Yunanıstanda əsası qoyulmuş Olimpiya Oyunları gözəl ənənələrə malik olmuşdur. Hələ ilk Olimpiya Oyunları zamanı atletlərin çıxışları ilə yanaşı mədəniyyət və incəsənət tədbirləri təşkil edilmişdir. Yarışlar dövründə natiqlər çıxışlar edir, şairlər şer oxuyur, musiqiçilər öz əsərlərini ifa edir, teatr tamaşaları göstərilirdi. Hər Olimpiadadan sonra qaliblərə heykəllər qoyulur, onların şərəfinə odalar yazılırdı. Beləliklə, antik Olimpiya Oyunlarında idman və mədəniyyət vəhdətdə təqdim olunurdu. Bu oyunlar yeniyetmə və gənclər üçün həm də tədris, təlim və tərbiyə məktəbi rolunu oynayırdı. Yunanıstanda xüsusi məşq yerləri - gimnastriadalar yaradılırdı.

394-cü ildə Roma imperatoru I Feodosi Olimpiya Oyunlarını qadağan etmişdi. Bu qadağanın qoyulduğu tarixdən X-XI əsrlərə kimi olan dövr idmanın tənəzzülü ilə diqqəti cəlb edir. XV- XVI əsrlərdə Avropanın bir sıra böyük şəhərlərində müxtəlif idman birlikləri, klublar yaranır, Olimpiya Oyunlarının təşkili ideyaları ortaya atılır. Hiss olunur ki, olimpiadalar insanların yaddaşında yaşayır. XVIII əsrin alman filosofu İohann Qotfrid Herder qədim yunanların idman yarışlarını xatırlayaraq yazmışdır: “O, ləyaqətli, şərəfli, nüfuzlu oyunlar indi harda var?” Tanınmış filosofun bu sözləri də Olimpiya Oyunlarının hafizələrdən silinmədiyini bir daha təsdiq edirdi. Olimpiada sevgisi insanların qəlbindən çıxmır. Zaman-zaman belə oyunların bərpası, bu və ya digər yerdə keçirilməsi cəhdləri olur.

XIX əsrin başlanğıcında dünyanın inkişaf etmiş ölkələrində idmana diqqət çoxalır, idman təşkilatları, klubları, birlikləri artır, idman meydançaları və qurğuları tikilməyə başlayır. XIX əsrin sonlarına yaxın isə Baron Pyer de Kuberten Olimpiya şəhərinin xarabalıqlarını axtarıb tapmaq ideyasının Fransaya, onun gerçəkləşdirilməsinin isə Almaniyaya mənsub olmasını xatırlayaraq yazmışdır: “Almaniya Olimpiyadan nə qalmışdısa torpağın altından çıxardı. Niyə Fransa Olimpiya Oyunlarını bərpa etməsin?”

Fransalı baron Pyer de Kuberteni indi hamı Olimpiya fədaisi, müasir Olimpiya Oyunlarının banisi kimi tanıyır. Pyer de Kuberten isə daha çox pedaqoq, tərbiyə və təhsil sahəsində böyük islahatçı idi. Təsadüfi deyil ki, o, “Olimpiya Berlinində məşəlin qaçanlara ötürülməsi” məqaləsində yazmışdır: “Mən bütün qayğılarımı atıb ömrümü və gücümü təhsilin inkişafına həsr edəndə əmin idim ki, pedaqoji islahatlar olmadan nə sosial, nə də siyasi sabitlik mümkündür”. Bu sözlər də ona məxsusdur: “Demokratiyanın təntənəsinin də, məhvinin də sirrini həmişə məktəblərdə, universitetlərdə axtarmaq lazımdır. Bu ocaqlarda işin yaxşılaşdırılmasının ən yaxşı və ən uzaq nəticələri olacaqdır”. Gənclik illərindən başlayaraq Kuberteni daha çox maraqlandıran məsələ təhsildə idmanın yerini və rolunu müəyyənləşdirmək idi.

1887-ci ildə Parisdə “Fransa Atletika Cəmiyyətləri İttifaqı” yaradılanda Kuberten elmi, publisistik, pedaqoji fəaliyyəti, idman və bədən tərbiyəsi işlərini kamil bilməsi ilə yaxşı tanınırdı. Elə ona görə də onu ittifaqın baş katibi seçdilər. 5 il sonra - 1892-ci il noyabrın 25-də İttifaqın Sorbonada keçirilən yubileyində söz baş katibə verilir və çıxışının axırında belə deyir: “Məruzəmi Olimpiya Oyunlarının bərpası kimi sensasiyalı xəbərlə bitirmək istəyirəm!”.

1894-də Parisdə Sorbonna Konqresində Beynəlxalq Olimpiya Komitəsi yaradıldı, müasir Olimpiya Oyunlarının birincisini Afinada keçirmək barədə qərar qəbul edildi. Afina 1896-cı ildə birinci Yay Olimpiya Oyunlarını keçirdi.

Antik Olimpiada tarixini, qaydalarını, ənənələrini çox gözəl bilən baron Pyer de Kuberten 1906-cı ildə müasir Oyunlar dövründə incəsənət müsabiqələrinin təşkili ideyasını ortaya atmışdı. 1912-1948-ci illərdə belə müsabiqələr bilavasitə Olimpiya Oyunlarının proqramlarına daxil edilmişdi. Müsabiqələrdə arxitektura, rəngkarlıq və heykəltəraşlıq işləri nümayiş etdirilir, bədii və musiqi əsərləri ifa olunurdu. Müsabiqə qalibləri Olimpiya medalları ilə mükafatlandırılırdı. Bu qayda 1952-ci ildə dəyişdirilmiş, mədəni tədbirlər başqa formata keçirilmişdir. İndi Olimpiya Hərəkatı çərçivəsində vaxtaşırı müxtəlif incəsənət müsabiqələri, sərgiləri və başqa tədbirlər hər 4 illik Olimpiya dövrü ərzində davam etdirilir.

Müasir Olimpiya Oyunlarının mədəniyyət proqramını BOK-un Mədəniyyət Komissiyası və Təşkilat Komitəsi əvvəllər birgə hazırlayırdı. Sonralar BOK-un komissiyasının təklif və tövsiyələri nəzərə alınmaqla hər Olimpiya Oyunlarının Təşkilat Komitəsinin oyunlar dövrü üçün tərtib etdiyi xüsusi “Mədəniyyət proqramı” çərçivəsində həllini tapmağa başlamış və bu gün də eyni qaydada davam etdirilir. Olimpiya Oyunlarının açılış və bağlanış mərasimləri isə unikal mədəniyyət tədbiri kimi tanınır. Adətən açılış mərasimi oyunların keçirildiyi ölkənin tarixini, mədəniyyətini, incəsənətini, etnogenizini, etnoqrafiyasını, elm və təhsilini, bir sözlə ölkəni və orada yaşayan insanları hərtərəfli təqdim etməyi nəzərdə tutan möhtəşəm kütləvi musiqili bədii proqramı əhatə edir. Bir çox Olimpiya Oyunlarında bağlanış mərasimi də öz tutumuna görə açılışdan geri qalmamışdır.

Olimpiya Oyunları dövründə təşkilatçı şəhərin bütün muzeylərinin, qalereya və sərgilərinin qapıları idmançıların, məşqçilərin, jurnalistlərin, nümayəndə heyəti üzvlərinin, hakimlərin üzünə açıq olur, onlara təmənnasız, dəqiq desək, pulsuz xidmət edir. Olimpiyaçılar üçün ayrılmış xüsusi nəqliyyatdan da eyni qaydada istifadə mədəni mərkəzlərin xidmətindən səmərəli yararlanmağa imkan verir. Şəhərdə olimpiyaçılar üçün ölkənin ən məşhur musiqiçilərinin konsertləri, ən yaxşı teatrlarının tamaşaları təşkil olunur. Bu cür tədbirlər açılış mərasimindən sonrakı gündən başlanıb, bağlanış mərasiminə qədər davam edir. Olimpiya kəndində hər gün idmançılar üçün ekskursiya və səyahət imkanları yaradılır. Təbii ki, qeyd olunanlar təşkilatçı ölkənin mədəniyyət və incəsənətini, tarixini, ənənələrini nümayiş etdirməyə xidmət edir. Bunu nəzərə alaraq, BOK Olimpiya Oyunları dövründə iştirakçı ölkələrin də öz mədəniyyətini yayması üçün yollar axtarmağa başladı. Qeyd edək ki, Olimpiya idealları da ayrı-ayrı xalqların, ölkələrin mədəniyyətini yaymağı, onu dünya mədəniyyətinin tərkib hissəsinə çevirməyi, bir millətin xidmətindən çıxarıb, bütün bəşəriyyətə xidmət etməyə yönəltmək məqsədini güdür. Bu baxımdan BOK Olimpiya Oyunları dövründə beynəlmiləl səciyyə daşıyan mədəniyyət tədbirlərinin təşkilini təşviq edir. Belə tədbirlərdən biri 2000-ci ildə Sidneydə yer aldı. 1999-cu ildə Beynəlxalq Olimpiya Komitəsinin Mədəniyyət Komissiyasının YUNESKO ilə birgə keçirdiyi “Olimpiya, incəsənət və idman-2000” müsabiqəsinin Azərbaycanda keçirilmiş milli mərhələsinə 50 rəssamlıq və heykəltaraşlıq əsəri təqdim olunmuşdu. 1999-cu il noyabrın 5-də İçəri-şəhərdəki “Sərgi salonu”nda müsabiqəyə təqdim olunmuş əsərlərin sərgisinin açılış mərasimi keçirildi. Sərgi ikinci dəfə “Hyatt Regency” mehmanxanasında həmin il dekabrın 28-də Milli Olimpiya Komitəsinin Baş Məclisi zamanı təşkil olundu.

Müsabiqədə heykəltaraşlıq üzrə Zakir Mehdiyevin “Güləş fəndi” (I), Natiq Əliyevin “At yarışından qabaq” (II), Xanlar Əhmədovun “Oxatan” (III), qrafika və rəngkarlıq üzrə Rəsul Hüseynovun “Uğursuz sırayış” (I), Arif Ələsgərovun “Qoca idmançılar” (II), Telman Abbasovun “Milli güləş” (III) əsərləri mükafata layiq görüldü.

Müsabiqənin milli mərhələsində hər iki kateqoriyadan I-III yerləri tutmuş əsərlər müsabiqənin beynəlxalq mərhələsində nümayiş etdirilmək üçün Lozannaya göndərildi. Beynəlxalq mərhələdə münsiflər heyətinin qərarına əsasən Zakir Mehdiyevin “Güləş fəndi” və Telman Abbasovun “Milli güləş” əsərləri dördüncü yeri tutdu. Bu əsərlər Sidney Oyunları dövründə keçirilmiş sərgidə nümayiş etdirilmiş, sərgidən sonra isə Beynəlxalq Olimpiya Komitəsinin Lozannadakı muzeyinin kolleksiyasına daxil edilmişdir. Beynəlxalq Olimpiya Komitəsinin Mədəniyyət Komissiyası tərəfindən “Olimpiya, incəsənət, idman -2000” müsabiqəsinin beynəlxalq mərhələsinə təqdim olunmuş əsərlərin kataloqu buraxılmışdır.

Olimpiya Oyunları dövründə hər bir ölkənin özünün mədəniyyət gününü təşkil etmək imkanı vardır. 2000-ci ildə Sidneydə Olimpiya Oyunları keçirildiyi dövrdə Azərbacan Milli Olimpiya Komitəsi “Azərbaycan günü” tədbirini təşkil etdi. Tədbirin əsas məqsədi məclisdə iştirak edən qonaqlara Azərbaycanı, mədəniyyətini, incəsənəti tanıtdırmaq məqsədi daşıyırdı. Bu tədbir sonrakı Olimpiya Oyunlarının hər birində təşkil olunmuşdur. Onu da qeyd edək ki, digər ölkələr də bu tədbiri keçirir.

BOK olimpiya və mədəniyyətin vəhdətini daha geniş miqyasda təqdim etmək məqsədilə Yeniyetmələrin Olimpiya Oyunları proqramında da mədəniyyət



tədbirlərinə xüsusi önəm verilməsini prioritet istiqamət kimi müəyyənləşdirdi. 2010-cu il avqustun 14-26 Sinqapurda Yeniyetmələrin I Yay Olimpiya Oyunları keçirildi. 12 gün davam edən bu oyunlarda 3600 idmançı, 1800 rəsmi şəxs iştirak etdi. Oyunlarda 205 ölkə təmsil olundu. Onlardan 97 ölkənin nümayəndələri medallar qazana bildilər. 12 idmançı ilə təmsil olunan Azərbaycan komandası 5 qızıl, 3 gümüş medal qazanaraq dünya ölkələri arasında 11-ci, Avropa üzrə 6-cı yeri tutdu.

Qeyd etdiyimiz kimi, Sinqapurda hər bir ölkənin öz mədəniyyət və tarixini təqdim etməsi üçün Olimpiya kəndində xüsusi şərait yaradılmışdı. Buradakı çadır şəhərciyində hər bir ölkənin öz çadırı vardı və bu, tarix və mədəniyyəti yığcam miqyasda nümayiş etdirməyə tam imkan verirdi. Sinqapur Oyunları yeniyetmələrin yalnız idman yarışlarında mübarizəsini deyil, həm də müxtəlif mədəni tədbirlərini özündə birləşdirdi və “Kamillik, dostluq və hörmət” devizini doğrultdu.

Avropa Yeniyetmələrinin Yay Olimpiya Festivalı (AYOF) qitə yeniyetmə (14-18 yaş) atletlərinin ən böyük idman tədbiridir. Avropa Olimpiya Komitəsinin digər qitələrdə keçirilən qitə oyunları formatında yarışlar təşkil etmək təşəbbüsünə cavab olaraq, Beynəlxalq Olimpiya Komitəsi 1991-ci ildə Avropa Yeniyetmələrinin Olimpiya Günlərinin təşkil olunmasına razılıq vermişdir və həmin ildən də başlayaraq keçirilir. Birinci Avropa Oyunlarına qədər qitə Olimpiya Komitəsinin təşkil etdiyi ən böyük idman tədbiri kimi Olimpiya tarixində yer tutur. İki ildən bir Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi və Avropa Olimpiya Komitəsinin rəhbərliyi altında AYOF Xartiyası və AYOF qaydaları Olimpiya Oyunlarının keçirilmə nizamnaməsi əsasında keçirilir. Açılış mərasimində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti iştirak edir. AYOF-un təşkili qaydaları Olimpiya formatına uyğun gəlir.

Təşkilatçı şəhər üçün namizədlik proseduru vardır. Şəhər AOK-un Baş Assambleyasında seçilir. 2000-ci ilədək bu tədbir Avropa Yeniyetmələrinin Olimpiya Günləri adlandırılmışdır. 2000-ci ildə ona Avropa Yeniyetmələrinin Olimpiya Festivalı adı verilmişdir.

1991-ci ildə Avropa Yeniyetmələrinin I Olimpiya Günləri Belçikada Brüssel şəhərində təşkil edilmişdir. 1993-cü ildən başlayaraq Avropa Yeniyetmələrinin həm yay, həm də qış Olimpiya günləri təşkil edilir. Avropa Yeniyetmələrinin Yay Festivallarında 50 Milli Olimpiya Komitəsini 3000-dən çox atlet və rəsmi şəxs təmsil edir. Festival 6 yarış gününü əhatə edir. Həm oğlanlar, həm də qızlar arasında 9 və ya 10 idman növündə yarışlar nəzərdə tutulur. Mütləq yarışlar: atletika, basketbol, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol sayılır. Bundan başqa, gimnastika və velosiped yarışları bir qayda olaraq proqrama daxil edilir. Təşkilati işlərə 1000-ə qədər könüllü cəlb edilir. AYOF-un əsas məqsədləri aşağıdakılardır: 1) gənc atletlər arasında Olimpiya ideallarının təbliğinə və yayılmasına xidmət edir; 2) gələcəyin idman ulduzlarının yetişməsinə yardımçı olur. Avropa qitəsinin şəhərlərinin inkişafı və tanınmasında yardımçı olur; 3) idman və Olimpiya qurğularının, müvafiq infrastrukturun yaradılmasına səbəb olur; 4) yeniyetmələrin dostluq, həmrəylik ruhunda böyüməsində, idmanın və sağlamlığın həyat tərzinə çevrilməsində özünəməxsus rol oynayır. Azərbaycan bu tədbirdə 1993-cü ildən iştirak edir.

2019-cu ildə AYOF Minsk şəhərində təşkil olunmalı idi. Avropa Olimpiya Komitəsinin oktyabr ayında Belarusda təşkil edilən sonuncu Baş Assambleyasında II Avropa Oyunlarının 2019-cü ildə Minskdə keçirilməsi haqqında qərar qəbul olundu və AYOF-un 2019-da Bakıda təşkili imkanı yarandı.

Azərbaycan Milli Olimpiya Komitəsi bu oyunların həm də böyük mədəniyyət tədbiri kimi tarixə düşməsi, Avropa Yeniyetmələrinin Olimpiya Festivalının mədəniyyət proqramını yaratmaq və Azərbaycan təcrübəsinin gələcək festivalların da tərkib hissəsinə çevrilməsi sahəsində təhlil və təkliflərini hazırladı. Beləliklə, Azərbaycanda OCEP proqramı layihəsi yaradıldı. Bu proqramı AOK və BOK qəbul etdi.

OCEP - Olimpiya Mədəniyyəti və Təhsil Programının başlıca məqsədi Avropa Olimpiya Komitələrinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyət və idmanı, həmçinin olimpiya hərəkatını təşviq etməkdir

*Cəmaləddin Rəhmanov,*
*MOK informasiya və nəşriyyat idarəsinin müdiri*

# Basketbol məşqçiləri üçün ustad dərsləri



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) basketbol üzrə məşqçilər üçün ustad dərsləri keçirilib. Ustad dərsləri ADBTİA-nın yeni təmir olunmuş basketbol zalında təşkil olunub. Məşqçilərə ustad dərslərini İngiltərənin Lids Universitetinin basketbol kafedrasının müdiri Metyu Niyubi keçib. Azərbaycan Basketbol Federasiyasının dəstəyi ilə həyata keçirilən tədbirdə yığma komandanın baş məşqçisi Samit Nuruzadə də iştirak edib. Ustad dərslərində məşqçilərə taktiki hazırlıq nümunələri göstərilib və onların sualları cavablandırılıb. Komandamızın baş məşqçisi Samit Nuruzadə "Olimpiya dünyası" qəzetinə fikirlərini bildirərkən ustad dərslərinin həm məşqçilər, həm də basketbolçularımız üçün böyük təcrübə olacağını qeyd edib.

"Məşq prosesi əsasən, 8-10 yaş qruplarını əhatə edirdi. Ümumiyyətlə, məşq prosesində fərdi bacarıqlara üstünlük verilmədir. İngiltərənin Lids Universitetinin basketbol kafedrasının müdiri Metyu Niyubi də bu gün keçdiyi ustad dərslərində məşqçilərə məhz bu bacarıqları necə inkişaf etdirməyi aşılayırdı. İdmançılar bu bacarıqları oyun zamanı da inkişaf etdirməlidirlər. Bu tədbir əsasən, məşqçilərin təcrübələrinin artırılması üçün basketbol federasiyası tərəfindən həyata keçirilən bir addımdır. Ümid edirəm ki, belə tədbirlər gələcəkdə də davam etdiriləcək. Bizim əsas məqsədimiz ölkəmizdə basketbolu inkişaf etdirmək, təcrübəli basketbol mütəxəssislərinin və bu idman növü ilə məşğul olan uşaqların sayını artırmaqdır. Federasiyanın dəstəyi ilə basketbolun inkişafı üçün nə lazımdırsa, onu da etməyə çalışırıq. İnanıram ki, bugünki ustad dərsləri məşqçilərimiz üçün böyük təcrübə olacaq. Belə tədbirlərin tez-tez təşkil olunması basketbolçularımızın hazırlıq səviyyəsinin artmasında da böyük rol oynayacaqdır", - deyə Samit Nuruzadə bildirib.



# Formula 1



## Mövsümün ilk Qran-prisinin qalibi müəyyənləşib

Melburn şəhərindəki "Albert Park" avtodromunda Formula 1 üzrə Avstraliya Qran-prisi keçirilib.

Dünya çempionatının ilk mərhələsində qalib adını "Mersedes" pilotu Valtteri Bottas əldə edib.

Finlandiyalı idmançı yürüşün sonunadək dominantlığı əldən verməyib.

Onun britaniyalı komanda yoldaşı, son dünya çempionu Luis Hamilton ikinci, "Red Bull"un hollandiyalı pilotu Maks Ferstappen üçüncü yeri tutub.

Qeyd edək ki, ümumilikdə, 20 pilotdan Romen Qrojan ("Haas"), Daniel Rikkardo ("Renault") və Karlos Sayns ("Mclaren") finişə çata bilməyib. Növbəti Qran-pri martın 29-31-də Bəhreyndə olacaq. Üçüncü mərhələ isə aprelin 12-14-də Çində təşkil ediləcək. Daha sonra aprelin 26-28-də Bakıda Azərbaycan Qran-prisi keçiriləcək. Dünya çempionatı ümumilikdə, 21 mərhələdən ibarətdir.

* * *

Britaniyalı məşhur müğənni, çoxlu sayda mükafata layiq görülmüş Sem Smit Formula 1 Azərbaycan Qran-Prisinin keçiriləcəyi yarışın ikinci günündə - aprelin 27-də axşam "Baku Crystal Hall"da konsert verəcək.

2012-ci ildə "Disclosure" qrupu ilə birgə ifa etdiyi "Latch" mahnısı ilə məşhurlaşan Sem Smitin daha sonra səhnə adı "Naughty Boy" olan britaniyalı musiqiçi ilə birgə çıxardığı "La La La" mahnısı ilk pillədə yer alıb. 2014-cü ilin əvvəlində "BRITS Critics' Choice" mükafatına layiq görülüb. Elə həmin il "BBC" tərəfindən yeni və istedadlı musiqiçilərin aşkarlanması məqsədilə keçirilən sorğuda birinci yeri tutub. Karyerasına başladığı vaxtdan "Writing's On The Wall" daxil olmaqla çıxardığı mahnılarla Birləşmiş Krallığın rəsmi hit-paradında 7 dəfə birinci olub.

"Writing's On The Wall" mahnısı hit-paradda birinci yer tutan ilk "James Bond" musiqisi kimi Ginnes Rekordlar Kitabına daxil olub. Sem Smit ümumilikdə 4 "Qremmi", 2 "BRIT" və "Ən yaxşı orijinal film musiqisi" nominasiyasında "Oskar" və "Qızıl qlobus" mükafatlarına layiq görülüb.

Qeyd edək ki, bilet sahibləri konsertlərdə pulsuz iştirak edə biləcəklər. Bakı şəhər halqasından "Crystal Hall"a tamaşaçıların gediş-gəlişi avtobuslar vasitəsilə həyata keçiriləcək.

## Yeniyetmə karateçilər arasında ən güclülər müəyyənləşib



"Baku Open" beynəlxalq karate turnirində kumite üzrə 12-13 yaşlılar və yeniyetmələr arasında ən güclülər müəyyənləşib.

12-13 yaşlı oğlanların mübarizəsində qalib adını Azərbaycan idmançıları Həsən Əhmədov (45 kq), Məhəmməd Xamoyev (45 kq), Aslan Dostuyev (50 kq), Nihad İsmayılov (55 kq), Vahid Həsənov (+55) qazanıblar. Qızların yarışlarında isə azərbaycanlı karateçilər Fatimə Cəbrayılova (42 kq), Süsənbər Həsənzadə (47 kq) və Qazaxıstan təmsilçisi Aida Bitimbaeva (+47 kq) qızıl medala layiq görülüblər.

Turnirdə 12-13 yaşlı oğlanlar arasında kata yarışında təmsilçilərimiz Həsən Əlizadə, qızların mübarizəsində Samirə Məmmədova birinci olublar. Yeniyetmələrin mübarizəsində isə kata üzrə karateçilərimiz Zəhra Qurbanzadə qızlar, Emin Namazov oğlanlar arasında çempion olublar.

Yeniyetmələr arasında kumite üzrə oğlanların yarışında Ruslan Qafarlı (57 kq), gürcüstanlı Givi Verxadze (63 kq) və Saba Mania (70 kq) birinci yeri tutublar. Azərbaycan təmsilçiləri Fidan Dadaşova (47 kq), Çinarə Xəlilova (54 kq) və Ukrayna idmançısı Aryna Bezrebraya (+54 kq) qızlar arasında qalib adını qazanıblar.

Turnirə martın 17-də yekun vurulacaq.

* * *

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) təqviminə daxil edilən respublika səviyyəli yarışlar "Uventex Labs" şirkətinin proqramı ilə təşkil ediləcək. ABŞ-ın "Uventex Labs" şirkəti artıq 5 ildir müxtəlif idman tədbirlərinin idarə edilməsi, eləcə də, idman kompleksləri və studiyalar üçün dünya səviyyəli məhsul təqdim edir. Şirkətin müəllif məhsulu indiyədək döyüş idman növləri, gimnastika, rəqs və bir sıra idman növlərində minlərcə turnirin təşkil olunmasında səmərəli istifadə edilib. Bu xüsusi proqram idman yarışlarının keçirilməsinin avtomatlaşdırılması və bütün proseslərin idarə olunmasına nəzarət etməyi təmin edir. Buraya yarış iştirakçılarının qeydiyyatı, turnir zamanı xalların daxil edilməsi, maliyyə hesabatları və digər əhəmiyyətli məqamlar da daxildir.

"Uventex Labs", həmçinin milli Olimpiya komitələri, federasiyalar və liqaların dünya səviyyəsində menecmenti işlərini təqdim edir. Şirkət yeni yaranmasına baxmayaraq təcrübəli mütəxəssislərdən ibarət komanda ilə yanaşı, məhsullarını daimi təkmilləşdirir və dünya ölkələrində idman təşkilatları ilə əməkdaşlıq coğrafiyasını genişləndirməkdə davam edir.

Bu il 20 Yanvar şəhidlərinin xatirə turniri ilə yanaşı, 10-cu "Baku Open" beynəlxalq karate turniri ABŞ-ın "Uventex Labs" şirkətinin proqramı ilə Azərbaycanda keçirilən ikinci karate yarışıdır. Şirkətin məhsulu hər iki turnirdə uğurla istifadə edildiyindən, Azərbaycan Milli Karate Federasiyasının rəhbərliyi "Uventex Labs"la rəsmi əməkdaşlıq etməyi qərara alıb.

Tərəflər arasında rəsmi müqaviləni AMKF-in prezidenti Yaşar Bəşirov və "Uventex Labs" şirkətinin rəhbəri Moşe Gerşberq və regional menecer Sergii Spasiçenko imzalayıblar. Şərtlərə əsasən, 2020-ci ilin sonunadək Dünya Karate Federasiyasının (WKF) qaydaları ilə keçirilən ölkədaxili yarışlarda şirkətin təqdim etdiyi avtomatlaşdırılmış idarəetmə proqramından istifadə ediləcək.

## Yığmamız təlim-məşq toplanışı üçün Gürcüstana yollanıb

Azərbaycanın kişi cüdoçulardan ibarət paralimpiya yığması təlim-məşq toplanışı üçün Gürcüstana yollanıb.

Baş məşqçi İbrahim İbrahimovun rəhbərlik etdiyi 12 nəfərlik heyət martın 26-dək Qoridə hazırlıq prosesində iştirak edəcək.

"Neftçi" İdman Klubunun dəstəyi ilə keçirilən təlim-məşq toplanışı Qori cüdo mərkəzində təşkil olunacaq.

Toplanış mayda Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarına hazırlıq xarakteri daşıyır.

**Redaksiyanın poçtundan**

## "Şahin" hərbi-idman oyununda 16 komanda yarışıb

"Şahin" hərbi-idman oyunu üzrə respublika birinciliyinin Qaxda keçirilən rayon turunun yarışları şəhər 4 saylı tam orta məktəbin komandasının qələbəsi ilə başa çatıb.

Birinciliyin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Əlövsət Bayramov çıxış edərək Gənclər və İdman, Təhsil və Müdafiə nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışların yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsi, orta məktəb şagirdlərini hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək məqsədi daşıdığını bildirib.

Şəhər stadionunda və 2 saylı məktəb-liseydə 16 komandanın iştirakı ilə keçirilən rayon birinciliyində, əvvəlcə, komandaların sıra hazırlığının səviyyəsi yoxlanılıb. Sonra məktəblilər turnikdə dartınma, maneələrin dəf olunması, kəndir vasitəsi ilə yüksəkliyə dırmanma, hədəfə qumbara atma, tüfəngdən atəş açma, mülki-müdafiə hazırlığı, yaralıya ilkin tibbi yardımın göstərilməsi və digər yarışlarda qüvvələrini sınayıblar.

Rayon birinciliyinin qalibi olan Qax şəhər 4 saylı tam orta məktəbin



komandası, eyni zamanda, yarışların zona mərhələsində iştirak etmək hüququ qazanıb. Sonrakı yerləri Tasmalı və Ləkit kənd tam orta məktəblərin komandaları tutublar.

## Etno festivalında üçüncü bürünc medal



Sumoçumuz Camal Feyziyev Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən ümumdünya etno festivalında üçüncü bürünc medalını qazanıb.

18 yaşlı idmançımız sərbəst güləş yarışında fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. 32 idmançının iştirak etdiyi yarışda Şri-Lanka, Rusiya və Belarus təmsilçilərinə qalib gələn C.Feyziyev yarımfinalda qırğızıstanlı güləşçiyə məğlub olub.

Bu, C.Feyziyevin festivalda üçüncü bürünc medalı olub. O, bundan əvvəl mas-resling və kəmər güləşi yarışlarında da bürünc medallara layiq görülüb.

## Sərbəst güləşçilərimiz Mahaçqalada hazırlıq keçiblər

Sərbəst güləş yığmamız Dağıstanın paytaxtı Mahaçqalada keçirilən təlim-məşq toplanışına yekun vurub. Baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan Hüseynov, məşqçilər Arif Abdullayev və Sadruddin Ayqubovun rəhbərliyi altında keçirilən məşqlərdə həm fiziki, həm də taktiki-texniki hazırlığa diqqət yetirilib. Gələn ay Rumıniyanın paytaxtı Buxarestdə keçiriləcək Avropa çempionatına hazırlıq xarakteri daşıyan təlim-məşq toplanışı yerli komandayla birgə baş tutub. Qeyd edək ki, yunan-Roma güləşi və qadınlardan ibarət millilərimiz qitə birinciliyinə Bakıda hazırlaşır.

# Novruz mərasimlərində milli xalq oyunları



*Dilqəm Quliyev,*
*pedaqogika üzrə*
*elmlər doktoru,*
*professor*

***"Novruz" - hərfi mənada yeni gün deməkdir. Amma ifadə etdiyi mərasim məzmununa görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir.***

Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye" (Pamyatniki minuvşix pokoleniy), Kaşqarlı Mahmudun "Divani Lüğət-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və s. əsərlərində rast gəlirik.

Əl Biruninin yazdığı rəvayət isə Novruzun yaranmasını Azərbaycanla bağlayır. Bu rəvayətə görə Cəmşid Azərbaycana gələndə qızıl taxta oturur və insanlar onu öz çiyinlərində aparırlar. Günəşin şüası Cəmşidin üzərinə düşdükcə insanlar onu görürlər və sevincdən həmin günü bayram edirlər.

İlk mənbələrdən biri hesab olunan "Avesta"da Cəmşid haqqında belə bir məlumat verilir. "Zərdüşt Ahuraməzdadan ondan qabaq kiminlə danışdığını soruşur. Ahuraməzda cavabında deyir: Ey Zərdüşt, səndən qabaq mən Cəmşidlə danışmışam ("Yəsna", I cild, səh. 96. Burada Cəmşid maldarlıq və əkinçiliyi yayan şəxs kimi göstərilir) və ona hökmranlıq əlaməti olaraq üzük və qılınc vermişəm (Büüstün yazılarında və Sasani abidələrində təsvir edilən Ahuraməzda qarşısında dayanan hökmdara üzük və ya hökmranlıq simvolu hesab edilən halqa verir). Ona dünya səltənəti tapşırmışam".



Kitabda daha sonra deyilir: "Ahuraməzdanın əmri ilə Cəmşid Əryanəvyucdə, Daytiya çayının kənarında mələkələrin iştirakı ilə məclis düzəltmiş və Ahuraməzda da bu məclisə gəlib Cəmşidi dünya hadisələrindən xəbərdar etmişdir". Deməli, Novruz bayramının banisi kimi tanınmış Cəmşid Araz çayı kənarında məclis qurmuş, burada məskən salmış və burada da dünya hadisələrindən xəbərdar olmuşdur. Əl Biruni "Asar əl-Baqiyyə" adlı əsərində bu haqda belə yazır: "Deyirlər, Cəmşid bir sıra şəhərlər gəzib, nəhayət, Azərbaycana gələndə taxta çıxdı və camaat onu çiyinlərində apardı. Günəş şüaları həmin taxta düşdü, camaat bu şöləni görüb həmin günü bayram etdi (Əl Biruni, "Asar əl-Baqiyyə". səh 242)". Digər bir mənbədə isə deyilir ki, Cəmşid dünyanı seyr edirdi. Azərbaycana çatdıqda, o, həmin gün taxta oturdu, camaat şadlıq etdi və dedilər ki, bu gün novruzdur - yeni gündür (M. Müzəffər. "Şərhe bistbab Molla Müzəffər fi mərfətə əl-Təqvim". 1330, h:q.)". Azərbaycan xalqının təcrübəsində Novruz təqvim mərasimi olmaqdan çıxdıqdan sonrabelə öz əhəmiyyətini azaltmamışdır. Bu da onun arxaik ritualdan gələn genetik əsaslara malik olmasının, başqa sözlə, bu xalqın öz bayramı olmasının təzahürüdür.

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanılır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, həmin günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, əzizlərim, yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam və simpatiya ifadə edilərək ümumbəşəri dəyərlər üstün tutulmuşdur.

Novruz bayramının Cəmşidin adı ilə bağlı olması haqqındakı məlumat bu bayramın meydana gəlməsi tarixini aydınlaşdırmağa müəyyən qədər əsas verməklə yanaşı, həm də bayramın Azərbaycanla bağlı olması, onun Azərbaycanda meydana gəlməsi məsələsini izah etmək nöqteyi-nəzərindən də maraqlı və əhəmiyyətlidir.

Novruz bayramının Azərbaycanla bağlı olması fikirləri əsrlər boyu davam edərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, orta əsr mənbələrinə xas olan belə bir cəhəti qeyd etməliyik ki, həmin dövrlərdə bütün bayramların hökmdarların adı ilə bağlanmasına xeyli səy göstərilmişdir. Bu isə dövrün xüsusiyyətlərindən irəli gəlirdi. Çünki orta əsrlərdə alim və şairlərin, demək olar ki, əksəriyyəti müəyyən hökmdarların



tabeliyində və ya himayəsi altında olmuşdur.

Yaz bayramı haqqında yazılı məlumat eramızdan əvvəl 505-ci ildən məlumdur. Uzun əsrlər keçsə də, bu bayram getdikcə təkmilləşmiş, kütləviləşmiş və indiyə qədər də öz aktuallığını saxlamaqdadır. Novruz bayramı ənənəvi şəkildə hər il respublikamızın bütün bölgələrində böyük təmtəraqla qeyd olunur. Novruzu bir ay əvvəldən qarşılamaq Azərbaycanda bir adət olub və bu gün də həmin adət yaşamaqdadır. Novruza qədər hər çərşənbə axşamı evlərin həyətində tonqal qalanar, tonqala üzərlik tökub belə sözlər oxuyardılar:

"Üzərriksən havasan
Cəmi dərdə davasan.
Hər yerdə sən yanarsan".

Bayram günlərində xalq bir yerə toplaşar, şənlik edər, müxtəlif oyunlar oynanılardı. Bu oyunlarda elin güclü, qüvvətli igidləri öz bacarıqlarını nümayiş etdirərdilər. Azərbaycanda lap qədimlərdən Novruz şənliklərində "İynə-iynə", "Sayaçı", "Yuğlama", "Yel baba", "Cütçü şumu", "Kəvkəs", "Kosa-kosa", "Qaravəlli", "Qurd oyunu", "Aşıq oyunu", "Dirə döymə" və s. kimi milli xalq oyunları keçirilib. Bütün bunlarla birlikdə "Kəndirbaz", "Masqara", "Qılınc oynatma", "Kəmər atma", "Qoç döyüşdürmə" tamaşaları hazırlanır.

## "Mil" oyunu

Novruz bayramında pəhləvanlar hər əlinə bir mil alıb başının üstünə qaldırardı. Bu zaman dumbul çalınmağa başlardı. Dumbul, əvvəlcə, lap ahəstə, sonra get-gedə sürətlə çalınardı. Mil oynadan adam da həmin templə başının üstə milləri hərləyərdi. Oyun qurtardıqdan sonra camaat oyunçuları alqışlayardı. Bəziləri camaatın xahişi ilə mili tək əllə yuxarı atıb dəstəyindən tutardı. Yaxşı mil oynadanlar mili ayağının altından da atıb-tutardı. Pəhləvanlar şənliyin sonunda qurşaq (güləşmə) tutardılar. Güləşmədə iştirak edənlər - Şonu oğlu Həsən, Məmməd Hüseyn, Şah İsmayıl, Pəhləvan Məhəmməd Hənifə, Cəro Süleyman, Altıaylıq Əbdüləli, Xiləli Pəhləvan (Əli Hümmət), Zorba Rzaqulu, Hapış Məhəmmədəli, Qatırçı Mirzə, Axmaq nəvəsi İsrafil, Çopur Səyad oğlu, Məmməd Hənifə, Tarta nəvəsi Kəbləhüseyn, Balabançı oğlu Məmməd, Xəlifə Süleyman (adamlara ləqəb qoymaq keçmişin adətlərindən idi) dövrünün tanınmış pəhləvanları sayılardılar.

Oyunun axırına bir qədər qalmış camaat pəhləvanların birindən xahiş edərdi ki, gənclərlə güləşsin. Bu zaman Altıaylıq Əbdüləli papağını başından götürər, sarı ipək qurşağını açar, ipək köynəyini çıxardar, sonra onun qabağına bir tünükə qoyardılar. Gənc həvəskarlar da soyunardılar. Altıaylıq "süfrəyə" tullanardı. Onu hər tərəfdən tamaşaçılar alqışlayardılar. Məşhur musiqişünas, xanəndə Hacı Zeynal oğlu Ağa Kərim Altıaylığın şəninə pişro deyərdi.

Qeyd edək ki, altıaylıq ləqəbi ilə tanınan adam nazik, uzun, qara bığlı, hündürboylu, enlikürəkli, üzügülər bir pəhləvan idi. Dodaqaltı gülə-gülə əllərini sinəsinə qoyub camaata baş əyərdi. Əliaçıq tamaşaçılar ona "üçlük", "beşlik", "onluq" əskinas (kağız pul) bağışlayardılar. Hərdən İrandan, Ərdəbildən, Sarabdan nüfuzlu, adlı-sanlı qurşaq tutanlar da gələrdi. Novruz bayramında həmin pəhləvanlar zorxanada da iştirak edirdilər. Bakıda yaşayan iranlı pəhləvanlar - Şatır Məmməd, Kankan Rza, Qənnatı Kərim, Pinəçi Məmi və digərləri Novruz bayramında qurşaq tutardılar. Yığılan pullardan zorxanaya xərc çəkilər və iştirak edənlərə hamam pulu verilərdi.

## Qurşaqtutma

Qurşaqtutma Azərbaycanda geniş şəkildə oynanılan qədim oyunlarından biridir.

Novruz bayramı və digər el şənliklərində qurşaqtutma yarışı keçirilir. Bu, zorxana idman oyunlarında güləş yarışının ən qədim ənənəvi adlarından biridir. Tamaşa ünsürləri ilə zəngin olan bu güləş növündə olan oyun və yaxud da yarış adətən Novruz bayramı və digər el şənliklərində oynanılır. Müxtəlif şənlik, bayram və yığıncaqlarda pəhləvanlar qoşa zurnanın cəsarət, güc, döyüşkənlik aşılayan zil səsi, zərb alətlərinin gur sədası altında meydana gəlir, igid cavanları güləşə çağırırlar:

- Mənəm nərlərin nəri,
Ay oğlan.
Mənəm ərlərin əri,
Ay oğlan.
Əl qolunu çatdadaram,
Ay oğlan.
Bağrını partladıram,
Ay oğlan.

## Qılınc oynatmaq

Bu oyunda meydana çıxan gənclər bir-birlərinin əllərindən qılınc düşənə qədər döyüşməlidirlər.

Qılıncoynatma bəzən at üstündə də keçirilir. Bu oyundan qalib çıxana Novruz hədiyyəsi verilərdi.

## Cıdır oyunu

Novruz bayramı və digər el şənliklərində təşkil edilmiş atçılıq oyunlarından biridir. Cıdır xalq oyunun Azərbaycanda yayılması "Kitabi-Dədə Qorqud" boylarından, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından və klassik



ədəbiyyatımızın digər nümunələrindən də bəllidir.

Cıdırın keçirildiyi meydan və gün əvvəlcədən müəyyən edilir. Adlı- sanlı, tanınmış cavanlar bu oyun- yarışa xüsusi hazırlıq görür, təlim almış atlarını cıdıra hazırlayırlar.

Cıdır iştirakçılarından kim məsafəni birinci qət edərsə, o, yarışın qalibi sayılır və adət üzrə ona xonça təqdim olunur. Qalib çıxmış atın isə alnına bir yumurta vurub sındırır, boynuna qırmızı rəngli kəlağayı və ya parça bağlanılır. Cıdırın digər iştirakçılarına da müəyyən hədiyyələr verilir. Cıdır əyləncələrini zurnaçılar dəstəsi müşaiyət edir. Adətən cıdır meydanları üçün elə yer seçilir ki, əhali cıdıra çıxanları görə bilsin. Cıdır sözün əsl mənasında, gənclərin sınaq meydanına çevrilir, elin çevik, mərd, mahir çaparları burada müəyyən edilir. Cıdır ötəri yarış, sadəcə at oynatmaqla məhdudlaşan əyləncə deyil.



Burada pərəstişin, inamın, sehr və ovsunun izləri də var.

## "Papaq" və "Güc sınağı"oyunu

Oyunun iştirakçısı müəyyən vaxt ərzində öz papağını başında saxlamağa çalışmalı, həm də rəqib komandadan iki papaq götürməlidir. "Güc sınağı" oyunu da çox maraqlıdır. Bu zaman atlı çaparaq qabaq və arxa ayaqları bağlanmış qoyun və ya keçini yerdən götürüb yəhərə qaldırmalıdır. Bu oyunun da müxtəlif variantları var. Ümumiyyətlə, bütün xalq oyunlarımız gənclərə cəldlik, sərrastlıq, dəqiqlik, özünəinamlılıq aşılayır.

## "Sürpapaq" və "Piyalə və ox"

"Sürpapaq" oyununda isə oyunçular top-papaq uğrunda mübarizə aparır, sonda onu qapı dairəsindən keçirirlər. Oyun zamanı iştirakçılara cəmi üç dəfə atdan düşməyə icazə verilir. Bu oyun bir qədər müasir basketbola da oxşayır. Atüstü idman növlərindən "Piyalə və ox" oyunu da çox maraqlıdır. Oyunda məqsəd atı çaparaq xüsusi dirəyin üzərindəki piyaləni oxla vurmaqdır. Bu oyun bir neçə variantda oynanılır.

"Piyalə və ox" oyunu iştirakçılardan dəqiqlik və cəldlik tələb edir. Atın üstündə sürətlə hərəkət edərkən piyaləni dəqiq nişan almaq üçün həm də sərrastlıq lazım idi.

Novruz bayramında bütün bunlarla yanaşı, at çapma və güləşmə yarışları təşkil edilir, meydanlarda kütləvi oyunlar, rəqslər, yallılar oynanılır, kəndirbazların tamaşaları göstərilir, mahnılar oxunur və aşıqlar deyişirlər. Novruz bayramında kin-küdürət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmasın. Novruz bayramı bolluq, xeyirxahlıq, gözəllik bayramıdır.

Xalq arasında çox qədimdən yaranan "Qurd oyunu", "Qurd basdı", "Qurdlar səni yeyər", "Cızıq turnası oyunu", "Gizlənpaç" (gizlən, qaç), "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pula-pula", "Fincanfincan" və başqa oyunlarda həm uşaqlar, həm də böyüklər həvəslə iştirak edərdilər. Novruz bayramının ən yaxşı və yadda qalan atributlarından biri, ən çox tamaşaçı cəlb edən hissəsi milli xalq oyunlarıdır.

Novruz bayramından söhbət açan bəzi müəlliflər "kosa-kosa", "kəndirbaz", "sim pəhləvan", "masqara", "gözbağlıca", "cıdır" tamaşaları, qələncə oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq yarışları, bənövşə, və s. kütləvi əyləncəli milli oyunların bayramla əlaqədar keçirildiyini göstərmişlər. Sadaladığımız bu xalq oyunları uzun yol keçərək bu günümüzədək gəlib çatmışdır.

Bir məsələni qeyd etmək yerinə düşər ki, bu oyunların bəziləri artıq müasir beynəlxalq idman növünə çevrilmişdir. Məsələn: güləş, atçılıq, atıcılıq, ağırlıqqaldırma, qaçış və digər idman növləri məhz xalq oyunlarının kökləri əsasında yaradılmışdır. Sevindirici haldır ki, beynəlxalq aləmdə fərqlənən idmançılarımız xalqımızın keçmiş adət-ənənələrindən, xalq oyunlarından bəhrələnərək bu gün dünyada şöhrət qazanmışlar. İnanırıq ki, bu tendensiya bundan sonra da davam edəcək, idmançılarımız ən nüfuzlu beynəlxalq yarışlarda, o cümlədən Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, başqa mötəbər idman tədbirlərində əldə etdikləri qələbələrlə xalqımızı sevindirəcəklər.



Hər il olduğu kimi, bu il də xalqımızın Novruz bayramından bir arzusu, bir diləyi var. Gələn Novruz qədim Oğuz elinin bir hissəsi olan Qarabağ torpağında qarşılayaq, qarçiçəyini, novruzgülünü, xarıbülbülü Şuşanın dağlarından dərək, İnşallah!.

Bizim müsahibə

**Dahilərdən biri deyib ki, həyata sağlam baxışı olan insanlar ömürdə artan yaş rəqəmlərinə fikir vermirlər. Əsas odur ki, müdriklik zirvəsinə çatanda geriyə çevrilib, məyus olmayasan. Gördüyün işlərdən həm zövq alasan, həm də bu hamı üçün xeyirli olsun. Uzun illər Azərbaycan idmanının inkişafında böyük işlər görən Nadir Əliyevdə belə insanlardan biridir. Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin (AHİTA) sədri olan Nadir Əliyevin martın 21-də 70 yaşı tamam olur. Elə bu məqsədlə "Olimpiya dünyası" qəzeti olaraq yubilyarla görüşüb, onun keçdiyi ömür yoluna yenidən nəzər saldıq.**

# Nadir Əliyev: "Ən böyük və dəyərli xəzinə insanın dostlarıdır"



*- Nadir müəllim, 70 yaşınız tamam olur. Bu münasibətlə sizi səmimi qəlbdən təbrik edirik. Ötən illəri necə xatırlayırsınız?*

- İdman sahəsinə təsadüfi gələn insanlardan deyiləm. Bu sahəyə böyük marağım olub. Uşaq vaxtlarında idmanın ayrı-ayrı növləri ilə, xüsusilə futbolla məşğul olmuşam. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşam. Tələbəlik vaxtında da idmandan kənarda qalmamışam. Demək olar ki, ömrüm futbolda keçib. İdmançı karyeramı başa vurduqdan sonra məşqçi-müəllim kimi fəaliyyət göstərmişəm. Bir müddət gənclərdən ibarət futbol komandalarında məşqçi kimi işləmişəm. Həmkarlar ittifaqlarının "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətində şöbə müdiri və digər vəzifələrdə çalışmışam. "Lokomotiv" idman klubunda da fəaliyyətim olub.

1995-ci ildə Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının vitse-prezidenti, 2006-cı ildən isə Prezident vəzifəsinə seçilmişəm. AHİK-in Məclis, Milli Olimpiya Komitəsinin və bir sıra federasiyaların Rəyasət Heyətlərinin üzvüyəm.

Gördüyüm işlər, çəkdiyim zəhmət dövlət tərəfindən layiqincə qiymətləndirilib. Mənə 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adı verilib.

Ən əsası Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərimə görə "Tərəqqi" medalı ilə təltif olunmuşam.

Harada, hansı vəzifədə işləməyimdən asılı olmayaraq çalışmışam ki, vəzifəmin öhdəsindən layiqincə gəlim. Çünki zəhmət çəkən insan gec-tez öz əziyyətinin bəhrəsini görür, layiq olduğu uğurun sevincini yaşayır.

**"Biz gələcəyimizi sağlam, gümrah, mərd görmək istəyirik"**

*- Qeyd etdiyiniz kimi, keçdiyiniz ömür yolu heç də hamar olmayıb. Uğura gedən yolda çətin anlarla da üzləşmisiniz. Həmin vaxtlarda bu maneələri necə dəf etmisiniz?*

- Əlbəttə, bir iş görülürsə, orda mütləq çətinlik olmalıdır. Lakin düşünürəm ki, yalnız iradəm və qətiyyətimlə həmin problemlərə qalib gələ bilmişəm. Çalışmışam ki, hər işdə öz gücümü sınayım. Heç kimə heç nə bildirmədən. Çətin vaxtlarımda mənim əsas təsəllim qazandığım uğurlar olub. Çünki həmişə nəticələrimiz problemlərimizdən qat-qat çox olub. Qeyd etdiyim kimi, mənim ömrüm idmanla bağlıdır. Bu mənada əldə olunan ən kiçik qələbə də mənim üçün böyük bir nəticədir. Bu gün rəhbəri olduğum qurum 9 təşkilatı özündə birləşdirir. Onlardan 4-ü idman cəmiyyətidir. Həmin cəmiyyətlərdən ən böyüyü "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətidir. Əminliklə deyə bilərəm ki, həm "Məhsul"da, həm də digərlərində idman yüksək sürətlə inkişaf edir, onların hər birində məşğul olan yeniyetmə və gənclər üçün əlverişli şərait yaradılıb. Bundan başqa onu qeyd edim ki, Yasamal rayonunda Həmkarlar İttifaqının həm də şahmat-dama məktəbi var. Şübhəsiz, şahmatın kütləviləşməsində, bu idman növünün tədricən sevilməsində həmin məktəbin də mühüm rolu az deyil.

*- Ömrünüzün müdriklik çağındasınız. Gənclərə məsləhətiniz nədir?*

- Gənclərə deyiləsi sözüm çoxdur. Hər şeydən əvvəl iradəli, dözümlü olmalı, çətinlikdən qorxmamalıdırlar. Başa düşürəm, ola bilsin, gənclər bir az düşünmədən addımlar atsınlar. Ancaq səbrli, soyuqqanlı olmağı bacarmaq lazımdır. Çünki məhz belə insanlar öz məqsədlərinə çatırlar. Atalar çox yaxşı deyib ki, "tələsən təndirə düşər". Düşünülmədən on addım atmaqdansa, yaxşı olar ki, məqsədyönlü bir addım atasan. Gənclər özlərinə qarşı tələbkar olmalı seçməli və hədəflərinə çatmaq üçün səylə mübarizə aparmalıdırlar. Onlar bu millətin gələcəyidir. Biz gələcəyimizi sağlam, gümrah, mərd görmək istəyirik.

**"Həyatın şirinliyini arzulayırsansa, gərək onun acısına da dözəsən"**

*- Nadir müəllim, dostları sınayıb, dostların sınağından çıxa bilmisinizmi?*

- Dostluq böyük nemətdir. Məncə, ən böyük və dəyərli xəzinə insanın dostlarıdır. İllərlə mənimlə yoldaşlıq edən dostlarım o qədər də çox deyil. Onların hər birinə öz təşəkkürümü bildirirəm. Sağ olsunlar ki, bu günə kimi məni tək qoymayıb, ən çətin anlarımda yanımda olublar. Zaman müntəzəm olaraq, necə deyərlər, ələk funksiyasını yerinə yetirir. Nəticədə onlardan ən sadiqləri bu günə qədər mənimlə dostluq etməkdə davam edirlər. Həmişə onların etimadlarını doğrultmağa çalışmışam.

*- Nəyəsə görə təəssüfləndiyiniz vaxtlar olubmu?*

- Təbii ki, olub. Bu, həyatın qanunudur. Həyatın şirinliyini arzulayırsansa, gərək onun acısına da dözəsən. Bəlkə də, geriyə boylananda bəzi məqamları peşmanlıq hissi ilə xatırlayıram. Amma şükür olsun ki, bu gün hər şey yaxşıdır. Düşünürəm ki, çətinliklər olmasa yaxşı günlərin qədri bilinməz.

*- Bir qədər ailəniz haqqında oxucularımıza məlumat verərdiniz.*

- Ailəmiz o qədər böyük olmasa da, mehriban, səmimidir. Bir oğlum var. O da futbolla məşğuldur. Sağ olsun ki, heç vaxt sözümdən çıxmayıb, verdiyim məsləhətlərə əməl edib. İki nəvəm var. Çalışıram ki, onları da layiqli vətəndaş kimi böyüdüm. Ən böyük arzularımdan biri məhz onların həyat meydanında öz mövqelərini tapmasıdır. İkisi də mənim üçün çox əzizdir.

*- İstirahətinizi necə planlaşdırırsınız?*

- Mən bu yaşıma qədər, demək olar ki, istirahət nədir, bilməmişəm. Yəni heç vaxt 5-10 günlük də olsa "istirahətə gedirəm"deməmişəm. İllərim yarışlarda, təlim-məşq toplanışlarında keçib. Bəlkə də, bir idman xadimi üçün bundan yaxşı tətil ola bilməz. Gərək arada hər şeydən uzaqlaşıb istirahətə çıxım. Lakin inanmıram ki, iki gündən artıq bunu bacaram (gülür).

*- Bəzən ətrafdakılar bizdən diqqət və qayğı gözləyirlər. Yəqin ki, tutduğunuz vəzifə, cəmiyyətdəki mövqeyinizlə əlaqədar Siz də belə hallarla qarşılaşmısınız.*

- Əlbəttə, belə hallara hər birimiz rast gələ bilərik. Elə mən özüm də yerli-yersiz nə isə umanlarla qarşılaşmışam. Lakin çalışmışam ki, əlimdən gəldiyi qədər onların hər birinə dəstək olum. Heç kim məndən narazı qalmasın. Nəyi bilməsəm də, bir şeydən əminəm ki, dünyada yaxşılıq qalacaq. Həm çalışdığım kollektivdə, həm də digər məqamlarda heç vaxt yardımımı əsirgəməmişəm. Edilən yaxşılığı başa düşüb-düşməmək artıq qarşı tərəfin özündən asılıdır. Belə bir misal var ki, balığa yaxşılıq elə, suya at, qədrini balıq bilməsə də, Xaliq biləcək. Sözsüz elə anlar olur ki, nə qədər istəsən də kömək edə bilmirsən. Şərait, mühit, imkanlar buna imkan vermir. Gərək qarşındakı insan bunu da anlayışla qarşılasın.

*- Bəzən deyirlər ki, vəzifə insanı dəyişir. Bu haqda Siz nə düşünürsünüz?*



- Ümumiyyətlə, mən xaraktercə elə adamam ki, hamı ilə yola getməyə çalışıram. Zənnimcə, çox vaxt da bunu bacarıram. Uzun müddətdir bu kollektivdəyəm. Burada sıravi məşqçi kimi işlədiyim vaxtlar da olub. Mənə elə gəlir ki, biz kollektivdən əlavə həm də bir ailəyik. Hansı vəzifədə çalışmağımdan asılı olmayaraq mən eyni Nadir müəllimə, dəyişməmişəm. Necə rəhbər olduğumu isə mən yox, kollektivdəkilər deyə bilərlər.

**"Mahir ovçu olmasam da, ov etməyi də xoşlayıram"**

*- Xarakterdən söz düşmüşkən, xarakteriniz necədir?*

- Əsas xüsusiyyətlərimdən biri odur ki, çalışmağı xoşlayıram. Nəticə qazanmaq, nəyisə müsbət istiqamətə dəyişmək, dəstək olmaq mənim həyatımın mahiyyətini təşkil edir. Məncə, zəhmətkeş olmaq, cəhd etməkdən yorulmamaq lazımdır. Həyat gecikənləri sevmir. Odur ki, mən də çalışıram ki, verilən ömür payından maksimum səmərəli istifadə edim.

*- Kimisi rəsm çəkməklə, kimisi də musiqi dinləməklə istirahət edir. Bəs siz?*

- Mən təbiəti çox sevirəm. Təbiətin qoynunda dincəlirəm. Mahir ovçu olmasam da, ov etməyi də xoşlayıram. Amma, əfsuslar olsun ki, müntəzəm ova çıxmağa vaxtım olmur. Buna baxmayaraq, fürsət tapan kimi açıq havada gəzməyə yollanıram.

*- Həyata keçməyən arzularınız varmı?*

- Mən elə insanam ki, həyatın axarını qabaqlamağı xoşlamıram. Məncə, belə olanda ömür maraqsızlaşır. Ən böyük diləyim nəvələrimin sağlam, layiqli vətəndaş kimi böyümələridir.

*- Nadir müəlim, söhbətin sonunda Sizi yubiley münasibətilə "Olimpiya dünyası" qəzetinin kollektivi və çoxsaylı oxucularımız adından təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni uğurlar diləyirik.*

- Çox sağ olun. Sizin bu diqqətiniz məni çox sevindirdi. "Olimpiya dünyası" qəzetinin hər bir əməkdaşına minnətdaram. Biz sizin qəzetinizin daimi oxucusuyuq.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

## Badmintonçumuz gümüş medal qazanıb

Kubanın paytaxtı Havana şəhərində "XX Giraldilla 2019" turnirinə yekun vurulub.

Kişilərin şəxsi yarışında ölkəmizi təmsil edən Ezmi Qovimuramadhoni mübarizəyə səkkizdəbir final mərhələsindən start verib. Badmintonçumuz ilk görüşündə Lüksemburq idmançısı Robert Mannı 2:0 (21-16, 21-17) hesabı ilə məğlub edib. Dördddəbir finalda meksikalı Arturo Hernandez ilə qarşılaşan Ezmi rəqibi üzərində 2:0 (21-19, 21-14) hesablı qələbə qazanıb. Ezmi yarımfinalda Kuba təmsilçisi Leodannis Martinez Palasio ilə yarışıb. Gərgin və maraqlı mübarizə şəraitində keçən qarşılaşma badmintonçumuzun 2:1 (21-16, 19-21, 21-19) hesablı qələbəsi ilə başa çatıb. Ezmi həlledici final



görüşündə Meksika idmançısı, turnirin 1 nömrəli reytinq favoriti Cob Kastilyo ilə qarşılaşıb. Görüş meksikalı badmintonçunun 2:0 (21-12,21-13) hesablı qələbəsi ilə yekunlaşıb. Beləliklə, "XX Giraldilla 2019" turnirinin finalında uduzan Ezmi yarışın gümüş medalına sahib olub.

* * *

Azərbaycan Texniki Universitetinin İdman Sarayında Əməkdar məşqçi Lado Mehdiyevin xatirəsinə həsr olunmuş badminton üzrə 2004-2009-cu illər təvəllüdlü oğlanlar və qızlar arasında "Təhsil" Respublika İdman Mərkəzinin açıq birinciliyi keçirilir.

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı və Federasiyanın dəstəyi ilə keçirilən turnirdə ümumilikdə 8 komanda 3 yaş qrupu (2004-2005, 2006-2007, 2008-2009) üzrə yarışır.

Yarışlarda 120-dən çox badmintonçu 5 kateqoriya üzrə mübarizə aparacaq. Turnirin finalları martın 19-da keçiriləcək. Qalib idmançılar müvafiq dərəcəli diplom, kubok və medallarla təltif olunacaqlar.

Azərbaycan triatlonçusu Rostislav Pevtsov Avstraliyada keçirilən dünya kuboku yarışlarında altıncı olub.

## Triatlonçularımız yeni mövsümə Avstraliyada start veriblər

İdmançımız 64 triatlonçunun mübarizə apardığı yarışı 52 dəqiqə 27 saniyəlik nəticə ilə başa vurub.

R.Pevtsov 750 metrlik su məsafəsini 8 dəqiqə 1 saniyəyə qət edib. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 28 dəqiqə 16 saniyəyə başa vurub. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını Rostislav 14 dəqiqə 51 saniyə nəticə ilə tamamlayıb.

Yarışın qalibi kanadalı Tayler Mislavçuk olub.

Dünya kuboku yarışlarında çıxış edən yığmamızın digər üzvü Kseniya Levkovskaya isə finişə 23-cü çatıb.



Qeyd edək ki, triatlonçularımız "Tokio 2020" Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün iki il ərzində təsnifat yarışlarında iştirak edirlər. Bu müddət ərzində onlar dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

***İdman sülhün və dostluğun carçısıdır. Digər sahələrdə olduğu kimi, idmanda da ədalət prinsipi vacib amillərdəndir. Sevindirici haldır ki, ədalət prinsipinə sadiq olan idmançılarımız nümunəvi çıxışları ilə dünyada seçilirlər. Bu gün çoxları ədalətli oyun anlayışını yalnız futbolla əlaqələndirirlər. Əslində, isə bu, belə deyil. Ədalət anlayışı və prinsipi bütün idman növlərində mövcuddur. Ədalətli idman ilk növbədə, rəqibə hörmət kimi də dəyərləndirilir. İdman xalqlar arasında dostluğa, qardaşlığa, qarşılıqlı anlaşmaya yardım göstərən vasitələrdən biri olmaqla yanaşı, ədalətli mübarizəni, sağlam həyat tərzini təbliğ edir, insanın fiziki və mənəvi tərbiyəsində mühüm rol oynayır. Bu gün ölkəmizdə idmanın təmizliyinin qorunması və ədalət prinsiplərinin bərqərar olunması üzrə böyük işlər görülür.***

# Ədalətli idmanın keşiyində dayanmaq böyük məsuliyyət tələb edir



Respublikamızda fəaliyyət göstərən Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) də bu işlərin mühüm bir hissəsidir desək yanılmarıq.

Müstəqil qurum olan AMADA 2016-cı il dekabrın 23-də Azərbaycanda antidopinq proqramının həyata keçirilməsi məqsədilə yaradılıb. Bu model dünyada effektiv antidopinq proqramları üçün qızıl standart hesab edilir. Təsis olunmasından cəmi iki il keçməsinə baxmayaraq, Azərbaycan Milli Antidopinq Agentliyi və onun gördüyü işlər qlobal antidopinq hərəkatı tərəfindən tanınır və yüksək qiymətləndirilir. AMADA təhsil, tədqiqat, hədəfli testlər, sanksiyalar, hüquq-mühafizə orqanları ilə effektiv əməkdaşlığa əsaslanan hərtərəfli antidopinq yanaşmasını tətbiq edir. AMADA-nın həyəti səylərini idmançıların sağlam və təmiz şəraitdə rəqabət aparmaq hüququnun müdafiəsinə və yarışmanın dürüstlüyünün qorunmasına yönəldir.

Agentliyin missiyasının hüquqi əsasını Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış və onun müvafiq Fərmanı ilə qüvvəyə minmiş "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" qanun təşkil edir. Qurumun əsas funksiyaları antidopinq proqramının idarəetməsi və təşviqatı, yarışma müddəti və yarışmadan kənar müddətdə testlər keçirmək, sonradan nəticələri emal etmək, idmançıların maarifləndirilməsi, dopinqin aşkarlanması, qarşısının alınması və profilaktikası və cəmiyyət və idman ictimaiyyəti arasında idmanda dopinq istifadəsinin qarşısının alınması məqsədilə məlumatlandırma ilə bağlıdır.

Bu yaxınlarda Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli ilə görüşüb, qurumun fəaliyyəti, uşaq və gənclər üçün sağlam mühit yaradılması və dopinq istifadəsinin qarşısının alınması üçün görülən tədbirlərdən danışdıq.

Müsahibimiz, əvvəlcə, ötən il ərzində görülən işlər və qarşıda duran planlar barədə məlumat verdi. Onun sözlərinə görə 2018-ci il AMADA üçün uğurlu olub. "Keçən il bir sıra uğurlu layihələr həyata keçirdik. Demək olar ki, test sayını 2 dəfədən çox artırdıq. Mindən çox test aparıldı. Bir neçə beynəlxalq qurumlarla ələqələr qurduq. Bundan başqa elə layihələr var ki, onlar bu il də davam etdirilir. Təbii ki, idmançıların əksəriyyəti hansısa dərmandan istifadə edir. Bizim bunun üçün qadağan olunmuş xüsusi dərmanlar siyahımız var. Hər ilin əvvəlində qadağan olunmuş dərmanların siyahısını tərcümə edib, federasiyalara göndəririk. Əgər dərmanlarla bağlı hansısa dəyişiklik olunarsa, bu siyahıda öz əksini tapır. Biz hazırda kompüter və mobil telefonlar üçün proqram əlavəsi hazırlayırıq. İdmançı bu proqram əlavəsinə dərmanın ilk üç hərfini yazmaqla həmin preparatın qadağan olub, olmadığı barədə məlumat alacaq. Bu, çox sadə və əlverişli proqram olacaq. Düşünürəm ki, bu proqram idmançılar, məşqçilər və federasiyalar üçün çox vacibdir. Haqqında danışdığım bu proqram 2 aya hazır olacaq. Proqram təkcə dərman preparatlarına aiddir. Burada idman qidaları yer almayacaq. İdman qidalarının tərkibi heç vaxt bilinmədiyi üçün biz Antidopinq Agentliyi olaraq bu qidalara hər hansısa bir bir rəy verə bilmirik. Həmin qidaların tərkibi həmişə gizli saxlanılır. Bunun üçün gənclərimizə məsləhət görürük ki, idman qidalarından istifadə edərkən ehtiyatlı olsunlar. Onu da deyim ki, idman qidası məsələləri ilə bağlı Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlıq edəcəyik. Bu ildən idman qidaları arasında nə qədərinin dopinq tərkibli olduğunu öyrənməyə çalışacağıq", - deyə Şəfəq Hüseynli bildirdi.

## "Çalışırıq ki, uşaq və gənclərimizi maarifləndirici tədbirlərə cəlb edərək, onları dopinq bəlasından qoruyaq"

Şəfəq xanım bizimlə söhbətində AMADA-nın gördüyü işlərdən danışarkən maarifləndirmə proqramına da toxundu. Proqramın əsas mahiyyəti barəsində məlumat verən qurumun direktoru bu il də belə tədbirlərin davam etdiriləcəyini vurğuladı: "Biz inanırıq ki, idmançılar antidopinq barədə nə qədər məlumatlı olsalar, onların dopinqə qarşı münasibətləri o qədər mənfi olar. Bizim məqsədimiz bütün idmançıların və həmçinin onlara dəstək heyətinin saf idmanın dəyərlərini anlamalarına və təbliğ etmələrinə əmin olmaqdır. Antidopinq Agentliyi olaraq saf idmançıların növbəti nəslini ilhamlandırmaq üçün maarifləndirmə proqramları həyata keçiririk. Bizim Antidopinq Profilaktikası Proqramımız məlumat, dəyərlər əsasında maarifləndirmə, sağlamlığı üçün nəticələr və etik məsələlərdən ibarətdir. Bizim planımız dopinqdən azad idman uğrunda məlumat, maarifləndirmə və profilaktika proqramlarını icra etmək, qiymətləndirmək və monitorinq etməkdir. Bəzi idmançılar var ki, özləri də bilmədən dopinqdən istifadə edirlər. Bu həmin idmançıların məlumatsızlığından irəli gəlir. Biz də bunun üçün maarifləndirmə və təbliğat proqramından istifadə edərək belə halların qarşısını almağa çalışırıq. Artıq qarşıdakı iki il üçün maarifləndirmə proqramının bəzi hissələrini hazırlamışıq. Bunun üçün biz məşhur idmançılarımızla görüşlər keçirdik, onlarla geniş müzakirələr apardıq. Biz bu görüşlər zamanı idmançılarımızdan maarifləndirmə proqramını necə görmək istədiklərini öyrəndik. Çalışırıq ki, maarifləndirmə proqramı darıxdırıcı olmasın. Yəni asan olsun. Ola bilər ki, bəzi idmançılar üçün bu proqram çətin və darıxdırıcı görünər. Elə məhz buna görə də biz bu məsələdə məşhur idmançılarımızın fikirlərini öyrənməyə çalışdıq. Yaxın vaxtlarda məşhur idmançılarla növbəti görüşümüz olacaq. Ümid edirəm ki, bu görüş də proqram üçün çox faydalı olacaq. Maarifləndirmə proqramından danışarkən onu da qeyd edim ki, biz yeniyetmə, gənc və böyük idmançılar üçün fərqli proqramlar hazırlayırıq. Çünki eyni məlumatı həm yeniyetmə, həm də böyük idmançılara danışmaq o qədər də effektli olmur. Çalışırıq ki, uşaq və gənclərimizi maarifləndirici tədbirlərə cəlb edərək, onları dopinq bəlasından qoruyaq".

## AMADA-nın maarifləndirmə və təbliğat işi yüksək qiymətləndirilir

AMADA-nın direktoru Şəfəq Hüseynli ötən ilin sonlarında Ümumdünya Antidopinq Agentliyində (ÜADA) məşvərət funksiyasını daşıyan Xüsusi İşçi Qrupuna üzv seçilib.

Qeyd etdiyimiz Xüsusi İşçi Qrupunun məqsədi ÜADA-nın rəhbərliyinə bütün ölkələrin Milli Antidopinq agentliklərinin, onların proqramlarının, qısa və uzunmüddətli proqramların effektivliyinə və dünyada təsirli dopinqə nəzarət strategiyası və planlarının təşviq edilməsi üzrə fəaliyyətə dair ekspert məsləhətləri, tövsiyələr verilməsi və metodiki dəstək göstərilməsidir. Xüsusi İşçi Qrupunun əsas vəzifələrindən biri 2018-ci ilin noyabrında ÜADA-nın Təsisçilər Şurasının Bakıda keçirilən görüşündə qəbul edilmiş geniş idarəetmə islahatları proqramının həyata keçirilməsində ÜADA-ya dəstək göstərməkdir.

AMADA-nın cəmi iki il əvvəl yaradılmasını nəzərə alsaq, Azərbaycan nümayəndəsinin ÜADA-nın Xüsusi İşçi Qrupunun işinə cəlb edilməsi ölkəmizdə dopinqlə mübarizə sahəsində görülən işlərin və bu yönümdə aparılan siyasətin effektivliyinin tanınması deməkdir.

Hər kəsə məlumdur ki, bütün dünyada antidopinq məsələsi geniş səviyyədə müzakirə olunur, hər il dopinq hallarının qarşısının alınması üçün yoxlamalar aparılır, müəyyən tədbirlər keçirilir. Şəfəq xanım söhbət zamanı AMADA-nın beynəlxalq qurumlarla əlaqələrindən də danışdı. O, rəhbərlik etdiyi qurumun yeni yaranmasına baxmayaraq, görüldüyü işlərə bir sıra beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymət verildiyini qeyd etdi. "Avropa Şurası AMADA-nın işini yüksək qiymətləndirib. Beynəlxalq Test Agentliyi yaradılıb. Biz artıq bu qurumla sıx əlaqədəyik. Beynəlxalq qurumlarla yüksək səviyyədə işlər qurulur. Biz Avropa Şurasında tez-tez görüşlər keçirir, bir sıra məsələlərin ətrafında müzakirələr aparırıq. Ötən ilin fevral ayında Bakıda Avropa Şurasının WADA ilə birlikdə monitorinqi keçirildi. Həmin tədbirdə üç gün ərzində müxtəlif qurumlarla görüşlər keçirildi, yoxlama işləri aparıldı və ölkədə antidopinqlə bağlı görülən işlərə yekun rəy verildi. Sevindirici haldır ki, AMADA-nın maarifləndirmə və təbliğat işi yüksək qiymətləndirilərək, digər ölkələrə nümunə kimi göstərildi. Bizim hüquq mühafizə orqanları ilə birgə fəaliyyətimiz, beynəlxalq qurumlarla əlaqələrin qurulması, imzalanan memorandumlar bu sahədə digər ölkələri qabaqlamağımıza şərait yaradır", - deyə, Şəfəq xanım vurğuladı.

Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru söhbət zamanı peşəkar idmançılarla yanaşı, müxtəlif fitnes-zallarında məşqçilər tərəfindən yeniyetmələrə müxtəlif harmonal tərkibli maddələrin verilməsi məsələsinə də toxundu. Belə halların qanuna zidd olduğunu deyən Şəfəq xanım bunun qarşısını almaq üçün tədbirlər görüləcəyini bildirdi. O, həmçinin AMADA-nın 2019-cu ildə hüquq-mühafizə oraqanları ilə birgə bir neçə tədbir həyata keçirməyi planlaşdırdığını da diqqətə çatdırdı.

"Biz hazırda hüquq-mühafizə orqanları ilə birlikdə böyük işlər həyata keçiririk. Hətta qanunvericilikdə müəyyən dəyişikliklərin olması barədə təkliflər irəli sürmüşük. Bir neçə aydır ki, bu məsələ ilə əlaqədar işlər görülür. Bununla bağlı Gənclər və İdman, Ədliyyə və Səhiyyə Nazirlikləri ilə birgə layihələr hazırlayırıq. İnanıram ki, bu məsələ yaxın günlərdə həll olunacaq. Bildiyiniz kimi, fitnes mərkəzlərində böyümə hormonlarından çox istifadə olunur. Bu barədə bizim məlumatımız var. Düşünürük ki, buna qarşı mübarizə aparmaq lazımdır. Çünki bu artıq ciddi sosial problemə çevrilib. Biz təkcə fitnes mərkəzlərinə deyil, güclü təsirə malik olan preparatlara qarşı da mübarizə aparacağıq. Həkimlər istifadə üçün belə preparatları pasiyentlərə yalnız reseptlə yaza bilər. Gənclərimiz bilməlidirlər ki, belə preparatları özbaşına, həkim məsləhəti olmadan qəbul etmək ciddi hormonal pozuntulara, sonsuzluğa gətirib çıxara bilər", - deyə AMADA-nın direktoru bildirdi.

## "Əgər əsas qaydaları pozursansa, idmandan uzaqlaşmalısan"

Ötən il ərzində bir çox federasiyalarda Azərbaycan Milli Antidopinq Agentliyi tərəfindən treninqlər keçirilib. Bu il də haqqında bəhs etdiyimiz qurum tərəfindən treninqlər və seminarlar keçiriləcək. Agentlik bundan başqa uşaq və gənclərin erkən yaşda bu cür problemlərlə rastlaşmaması üçün təkcə federasiyalarda deyil, klublarda və idman məktəblərində də müxtəlif tədbirlər təşkil edəcək. Şəfəq xanımın sözlərinə görə bunun üçün artıq müxtəlif nazirliklərlə yeni layihələr hazırlanır: "Elə məsələlər var ki, onların həllinə uşaq vaxtından başlamaq lazımdır. Buna görə də biz ölkəmizdə müxtəlif sayda idman məktəblərinin olduğunu nəzərə alaraq Təhsil Nazirliyi ilə birgə danışıqlar aparmışıq. Biz bu idman məktəblərində maarifləndirmə proqramlarını təşkil edəcəyik. Ümumiyyətlə, çalışacağıq ki, hər yerdə təbliğat işlərini aparaq. Lakin əsas gücümüzü idman məktəblərinə, klublara və federasiyalara verəcəyik. Bundan başqa, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ilə




birlikdə Antidopinq kursu hazırlayırıq. Bu layihəyə əsasən, ADBTİA-da bakalavr və magistr proqramında antidopinq kursları təşkil olunacaq. Bu layihə həm mütəxəssislərin yetişməsində, həm də gənclərə dopinqin zərərləri barədə məlumatlar verilməsi baxımdan müsbət rol oynayacaq. İnanıram ki, belə maarifləndirici layihələr və kurslar uşaq, yeniyetmə və gənc idmançılarımızı bu zərərli vasitələrə əl atmaqdan çəkindirəcək.

Bildiyiniz kimi, qanunvericilikdə bu preparatlardan istifadə etmək qadağan edilib. Bu məsələ qanunvericilik tərəfindən tənzimlənir. Buna görə də biz testlər aparır, maarifləndirmə işləri həyata keçiririk. Təəssüf ki, bizim işimizə bəzi şəxslər düzgün yanaşmırlar. Bu məsələnin ciddiliyini tam dərk etmirlər. Onlar düşünürlər ki, biz gəlib idmançıları yoxlayır və diskvalifikasiya edirik. Hər bir işin öz qaydası var, eləcə də, bizim. Biz gedib idmançıları yoxlayıb, işimizi standartlara uyğun qururuq. Necə ki, hansısa idman yarışında hakimlər yarışın qaydalar çərçivəsində keçməsini təmin etdiyi kimi, biz də idmançıları sağlam, bərabərhüquqlu şəkildə nəticə qazanmaq üçün düzgün yola dəvət edirik. Bizim idmançıları yoxlamağımız, testlər aparmağımız qaydalara uyğundur. Lakin hərdən buna görə idmançılar və məşqçilər tərəfindən xoşagəlməz hallarla qarşılaşırıq. Əməkdaşlarımıza "niyə gəldiniz, niyə yoxlayırsınız", - deyə müxtəlif suallar verirlər. Onlar elə bilirlər ki, biz idmançıları sıxırıq, qələbələrini istəmirik. Bu, əsla belə deyil. Biz çalışırıq ki, idmançılarımız beynəlxalq arenaya çıxanda parlaq şəkildə qələbə qazansınlar. Çalışırıq ki, gənc idmançılarımız düzgün istiqamətdə irəli getsinlər. Onlar bir şeyi dərk etməlidirlər ki, bu proses idmançının həyatının ayrılmaz hissəsidir. Bu, bütün dünyada gedən bir prosesdir. Buna görə də idmançılardan bizim işimizi düzgün başa düşülməsini istəyirik. Bizim işimiz idmançılar arasında bərabərliyi və onların qələbəsinin düzgünlüyünü təmin etməkdir. Hansısa idmançı süni yollarla nəticə qazanmağa çalışmasın. Bu, ədalətsizlik və layiqli idmançıların haqqına girmək deməkdir. Çox istəyirəm ki, ölkəmizdə idmançılar bizim işimizə mənfi yanaşmasınlar. Əgər biz bu testləri keçirməsək, həmin idmançılar beynəlxalq yarışlar zamanı dopinq qalmaqalına görə cəzalandırılacaqlar. Təsəvvür edin ki, idmançı Olimpiya Oyunlarında medal qazanır və bir aydan sonra dopinqə görə onun medalı əlindən alınır. Təbii ki, bu həm idmançının yarışlardan diskvalifikasiya olunmasına, həm də ölkənin beynəlxalq səviyyədə imicinə çox böyük zərər vuracaq. Dövlət həmin idmançılara çox böyük məbləğdə maliyyə vəsaiti xərcləyir. Əgər bu işin qarşısı daha erkən alınarsa, sonradan bu qədər problemlər və qalmaqallar yaranmaz. Bundan başqa həmin idmançı digər komanda yoldaşının haqqını da əlindən almış olur. Bu, düzgünlükdən çox uzaqdır. İdman qaydalar ərzində qurulub. Əgər sən əsas qaydaları pozursansa, idmandan uzaqlaşmalısan. İdmançılar bu gün cəmiyyətdə seçilmiş insanlardır. Onlar öz hərəkətləri, nizam-intizamı, psixologiyası ilə yeniyetmə və gənclərə örnək olmalıdırlar. Hər bir güclü atlet ardınca, yeni gənc idmançıların yetişməsinə vasitəçi olur. Bunun üçün də atletlərimiz çalışmalıdırlar ki, mənfi hallardan uzaqlaşsınlar və gənclərə hərtərəfli örnək olsunlar", - deyə AMADA-nın direktoru qeyd etdi.

Biz də inanırıq ki, Azərbaycan Milli Antidopinq Agentliyi ölkəmizdə idmanın təmizliyinin qorunması və ən əsası idmançılarımızın beynəlxalq arenalarda sağlam rəqabət aparması istiqamətində hələ çox uğurlu layihələr həyata keçirəcək. Bu işdə AMADA-ya uğurlar arzulayırıq.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# FUTBOL

## Dörddəbir final mərhələsinin cütlükləri müəyyənləşib

UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında futbol üzrə UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün dörddəbir final mərhələsinin püşkü atılıb.




Püşk dörddəbir finalda iki ingilis klubunu - "Tottenhem" (İngiltərə) və "Mançester Siti"ni (İngiltərə) üz-üzə qoyub. Digər ingilis klubu "Liverpul" (İngiltərə) isə "Portu" (Portuqaliya) ilə qarşılaşacaq. Mərhələnin ən maraqlı cütü isə İspaniyanın "Barselona" və İngiltərənin "Mançester Yunayted" komandaları olub. Hollandiya təmsilçisi "Ayaks" isə İtaliya nəhəngi "Yuventus"a rəqib olub.

Dörddəbir final mərhələsinin ilk oyunları aprelin 10-11-də oynanılacaq. Cavab qarşılaşmaları isə aprelin 16-17-də keçiriləcək.

Xatırladaq ki, UEFA Çempionlar Liqasının final matçı "Atletiko Madrid" klubunun ev oyunlarını keçirdiyi "Metropolitano" stadionunda oynanılacaq.

Nyonda, həmçinin UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün dörddəbir final mərhələsinin də püşkü atılıb.

Püşkün nəticələrinə əsasən, dörddəbir finalda İtaliyanın "Napoli" (İtaliya) və İngiltərənin "Arsenal" komandaları qarşılaşacaq.

Bu mərhələdə, həmçinin iki İspaniya klubu "Vilyarreal" və "Valensiya" komandaları bir-birinə rəqib olub. Mərhələnin digər cütünü "Benfika" (Portuqaliya) və "Aynraxt" (Almaniya) komandaları təşkil edib.

Çexiya klubu "Slaviya" (Çexiya) isə "Çelsi" (İngiltərə) ilə üz-üzə gələcək.

Dörddəbir final mərhələsinin ilk oyunları aprelin 11-də oynanılacaq. Cavab qarşılaşmaları isə aprelin 18-də keçiriləcək.

Xatırladaq ki, UEFA Çempionlar Liqasının final matçı mayın 29-da Bakı Olimpiya Stadionunda təşkil olunacaq.

## Final mərhələsinin püşkü Buxarestdə atılacaq

2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatının final mərhələsinin püşkatma mərasimi bu il noyabrın 30-da Rumıniyanın paytaxtı Buxarestdəki "National Arena"da təşkil olunacaq.

Avropa çempionatının 60 illik yubileyi ilə əlaqədar turnir 2020-ci ildə qitənin 12 şəhərində keçiriləcək. Avro-2020-nin qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu Bakı Olimpiya Stadionunda təşkil olunacaq.

Təşkilatçı ölkələrin heç birinin milli komandası final mərhələsinə birbaşa vəsiqə qazanmaq müstəsnalığına malik deyil və UEFA üzvü olan bütün milli assosiasiyaların komandaları seçmə mərhələdə mübarizə aparacaq. Bundan əlavə, UEFA Millətlər Liqası vasitəsilə də Avro-2020-nin final mərhələsinə vəsiqə qazanmaq mümkündür.

Avro-2020-nin seçmə mərhələsinin püşkü 2018-ci il dekabrın 2-də İrlandiyanın Dublin şəhərindəki Konvensiya Mərkəzində atılıb. Püşkün nəticəsinə əsasən, Azərbaycan milli komandası "E" qrupunda Xorvatiya, Uels, Slovakiya və Macarıstan komandaları ilə mübarizə aparacaq. Milliimiz seçmə mərhələdə ilk oyununu martın 21-də Zaqreb şəhərində Xorvatiya komandasına qarşı keçirəcək.

## *Dünya çempionu Çin millisində*



Fabio Kannavaro Çin millisinin baş məşqçisi təyin olunub. 45 yaşlı italiyalı mütəxəssis Marçello Lippinin istefasından sonra bu vəzifəni icra edəcək. Fabio Kannavaro Çin millisi ilə bərabər, "Quançjou Everqrand" klubundakı fəaliyyətini də davam etdirəcək.

Xatırladaq ki, futbolçu karyerasında "Napoli", "Parma", "İnter", "Yuventus" və "Real" kimi komandaların heyətində çıxış edən Fabio Kannavaro 2006-cı ildə İtaliya millisinin heyətində dünya çempionu olub.

*Küncdən zərbə*

## Futbola şöhrət gətirən dahilər, yaxud uğuru ilə diqqətçəkən memarlar





Əvvələr böyük futbol məşqçilərindən söz düşəndə ilk olaraq gözümüz önündə Fabio Kapello, Karlo Ancelotti, Quus Hiddinq, Aleks Fergüsson, Arsen Venger, Valeri Lobanovski, Dino Zoff, Klaudio Ranyeri, Marselo Lippi, Luçano Spaletti, Luis Felipe Skolari, Visente Del Boske, Dik Advokat, Mirça Luçesku, Rafael Benites, Flip Trusye, Karluş Keyruş, Mario Zaqalo, Eme Jake, Sven Yoran Eriksson, Fatih Terim, Şenol Güneş, Çezari Maldini, Veleri Qazzayev, Oleq Romantsev və başqaları canlanırdı. Adını çəkdiyimiz və çəkmədiyimiz bu mütəxəssislərin dövründə xeyli istedadlı futbolçular yetişib. Dövr dəyişir, insanlar ya irəli gedir, ya da...

### Uğurun kölgəsində sürünənlər

Bir vaxt yaşlı meydanlarda milyonların sevimlisinə çevrilən futbolçular elə həmin məkanda baş məşqçilik fəaliyyətinə başladılar. Nəticədə, Frenk Raykaard, Xosep Quardiola, Dieqo Simeone, Antonio Konte, Yoahim Löv, Niko Kovaç, Frents Bekkenbauer, Yohan Kruif, Maradona, Yurqen Klinsman, Yurgen Klopp, Karlos Dunqa, Maurisio Poçettino, Luis Enrike, Unai Emeri, Ryan Qiqqz, Georgi Hacı, Roberto Mançini, Gennaro Qattuzo, Andrey Şevçenko, Qurban Qurbanov kimi davamçılar yetişib. Lakin bu siyahıda çox az baş məşqçi var ki, özlərini doğrulddular. Özlərini doğrutmayanların sayı-hesabı yoxdur. Məsələn, Maradona dahi futbol ulduzu olsa da, onun rəhbərlik etdiyi komanda, xüsusilə Argentina millisi heç bir nailiyyət əldə edə bilməyib. Burada Karlos Dunqanı da Maradona ilə yanaşı tutmaq olar. Digər yeni məşqçilər isə hələ özlərini göstərmək üzrədirlər. Hətta onlar üçün hazırda futbol dünyası böyük mübarizə aparır. Aralarında elə məşqçilər də var ki, "bəxtə-bəxt" uğurun kölgəsi ilə sürünürlər. Yəni komandanın güclü futbolçuları bir-birini başa düşür, öz üzərinə düşən məsuliyyəti hiss edirlər. Bir sözlə futbolçular məşqçini öz arxasınca aparır. Məşqçi yalnız yorulmuş futbolçuları əvəzləyir. Bu cür asan yolla məqsədə çatmaq olmaz. Nəticədə həmin mütəxəssislər komanda zəif nəticə göstərdiyi halda, öz işindən qovulurlar. Bunu "Barselona"nın, "Bavariya"nın timsalında açıq-aşkar görmək olar. Belə komandalar adi bir məşqçi ilə də böyük nəticə əldə edə bilir. Bunu qətiyyətlə demək olar ki, "Barselona"da Frenk Raykaardın qoyduğu təməl üzərində Quardiola böyük bir qala tikib, özündən sonrakılara miras qoydu. Həmin mirasdan bir vaxtlar "Olimpiakos" və "Atletiko"da aşağı nəticə göstərən Ernesto Valverde indi lazımı səviyyədə yararlanır. Lakin "Real", "Mançester Yunayted", "Liverpul", "Çelsi" "Yuventus" "Valensiya" kimi klublarda bunu etmək mümkün deyil. Həmin klublarda baş məşqçilərin verdiyi qərarlar həlledici olur. Nə qədər futbolçular bir-birini başa düşsə də, məşqçinin müdaxiləsi məsələnin ziyanına olur. "Real"da baş məşqçi amili böyük rol oynayır. Madrid klubu elə futbolçulardan təşkil olunub ki, gərək onlarla ayaqlaşasan, yaxud onlara hökm edə biləsən. Ya da onların yanında sözün keçsin. Bu gün "Real" hazırki mövsüm üçün əksər titullardan məhrum olub. "Kral klubu" La Liqada ən yaxın izləyicisindən 12 xal geridədir. Çempionlar Liqasında öz meydanında "Ayaks"a biabırçı uduzan, "Kopa del Rey"də əzəli rəqibi "Barselona"ya məğlub olaraq mübarizəni dayandıran "Real" heç özünə oxşamır. Mourinyo, Lopeteqi, Solari kimi özündənrazı, səriştəsiz və asan yolla uğur qazanan baş məşqçilər klubu ağır vəziyyətə saldılar. Karyerasını "Real"da bitirmək istəyən futbolçular "özləri bitmədən" Madridi tərk etdilər ki, sonra gec olmasın.

### "Şamı söndürüb gedən əlində kibritlə qayıtdı"



Yuxarıda adlarını çəkdiyimiz baş məşqçilər və onların davamçıları arasında fikir verdinizsə, Zidanın adını çəkmədik. Əlcəzair əsilli fransalı mütəxəssis də son illərin tapıntısıdır. O, həm futbolçu, həm də məşqçi kimi böyük titullara sahib oldu. Zidan "birinci pərdədə" asan yolla uğura yiyələnən, futbolçuların hesabına özünə gələcək quran baş məşqçi olmadı. Onun "Real"a birinci gəlişi uğurlu alındı. Onun dövründə komanda ardıcıl olaraq Çempionlar Liqasını üç dəfə qalib kimi başa vurdu. Bu uğuru hələ ki, heç bir məşqçi əldə edə bilməmişdi. Bəlkə də, nəticə hələ neçə il təkrarlanmayacaq. Zidan, doğrudan da, böyük məşqçidir, yoxsa? Ancellotinin dövründə idman direktoru kimi həm təcrübə, həm də hörmət qazanan Zidan tezliklə layiq olduğu yerə yüksəldi. "Hörmət" sözünü ona görə işlədirik ki, fransalı mütəxəssis elə "Real"da böyük titullara sahib olub, futbolçu karyerasında qazandığı şöhrətlə doğma klubuna qayıtmışdı. O, böyük bir döyüşün ilk raundunu uğurla başa vurdu. Fransalı baş məşqçinin gəlişindən sonra "Real" 149 matçda (393 qol) 104 qələbə, 29 heç-heçə, 16 məğlubiyyətlə 9 fərqli turnirdə əsas mükafata sahib oldu. Bu fantastik bir nəticədir. "Zizu" ikinci raunda çıxmadı. O, qalib kimi ayrıldı "Real"dan. Florentino Peres onun tələblərini yerinə yetirmədi. Belə vəziyyətdə çıxış yolu komandadan ayrılmaq oldu. Bununla da "Real"ın dünyasına qaranlıq çökdü. Lopeteqi çalışdı nəsə etsin, Solari azacıq közərtisi olan çırağı tamamilə zülmətə təslim etdi. Nəticədə "Real" dilə-dişə düşdü, zəiflərin qurbanı oldu. Beləcə, 2019-cu il (Klublararası dünya çempionatında qələbə də Zidanın töhfəsi olub. Bundan Santyaqo Solari yararlanıb - A. Ə) uğursuz sayıla bildi.

Artıq "Real"da yeni dövr başlayır. Zidan mübarizənin ikinci raunduna özünü yetirib. Necə deyərlər, "şamı söndürüb gedən əlində kibritlə qayıtdı". Bu, bir qədər təhlükəlidir. 9 ay əvvəl komandasını uğurla tərk edən fransalının ikinci qayıdışı uğurlu olacaqmı? O, əvvəlki karyerasını yenidən bərpa edə biləcəkmi? Öz oyununu Ronaldo üzərində quran "Real" bu boşluğu hansı futbolçu ilə doldura biləcək. "Yenidənqurma" siyasəti özünü doğruldacaqmı? Zidan hansı futbolçuları istəyir, həmin futbolçular kluba töfhələrini verəcəkmi?

Bütün bu suallar hər bir futbol azarkeşini, idman yazarını çox düşündürür. Bunu isə zaman göstərəcək. Bizə gözləmək qalır.

***P.S.*** Zinədin Zidan "Real"da "Çelsi"dən Eden Hazard, Enqolo Kanteni, "Totenhem"dən Kristian Erikseni, "Liverpul"dan Sadio Maneni, "Mançester Yunayted"ən Pol Poqbanı, PSJ-dən Kilian Mbappeni, "Lion"dan Nabil Fekiri görmək istəyir. Artıq "Zizu" "Portu"da bəyəndiyi Eder Militao ilə ilk transfer arzusunu həyata keçirib.

*Anar Əhmədov*

Olimpiya dünyası

Baş redaktorun mavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.